# H Ə M Ş Ə X A N I M

***3 pərdə  5 şəkildə   komediya***

**İştirak edirlər:**

**Cəbi Cüməzadə**  -  Toxuculuq fabrikində  direktor əvəzi

**Zərnişan –** onun arvadı

**Təsadüf** – onların oğlu

**Şəfiqə**  - toxucu qız, briqada başçısı

**Diləzbər -** toxucu qız, briqada başçısı

**Azər** – usta köməkçisi

**Həmşəxanım** – xadimə

**Firuz** – texnoloq

**Hündür Ələsgər** – yükdaşıyan

**Muxtar** – elektrik texniki

**Toxucu qızlar**

# BİRİNCİ PƏRDƏ

## Birinci şəkil

**Üvertüra birinci pərdə qalxır. Direktorun kabineti və gözləmə otağı görünür. Tutduğu qəzetin arxasında gizlənmiş direktor əvəzi  Cəbi Cüməzadə  telefonlar qoyulan balaca stolun qırağında əyləşib. Gözləmə otağında zəng çalınır. Həmişəxanım qoltuğunda kitab, əlində süpürgə qaça-qaça gələndə dəhlizdə yıxılır. Böyrünü tutaraq ufuldayır.**

H ə m ş ə x a n ı m. Aman ey!.. Birtəhər oldum. *(Qalxır.)* Qoymaz ki! Qoymaz ki, işimizi görək. Yumurtası tərs düşmüş toyuq kimi sakit otura bilmir.  O yerdə ki, müdiri başqası əvəz elədi, vay işçilərin halına. *(Başını içəri salır.)* Cəbi Cüməzadə, nə deyirsiniz?

C ü m ə z a d ə. *(qəzeti  üzündən çəkmədən).* Sən kimsən?

H ə m ş ə x a n ı m. Həmşəxanım.

C ü m ə z a d ə. Gözlərim aydın.

**H ə m ş ə x a n ı m pərt çıxır**

H ə m ş ə x a n ı m. Müdirimiz də Moskvaya kursa getməyə vaxt tapdı. Barı yerinə bir fərli adam qoysaydı, dərd yarı idi. Bilmirəm, bu Cüməzadəni hardan tapıb bizə caladılar. *(Yenə zəng çalır. Həmşəxanım Cüməzadənin otağına keçir.)*

H ə m ş ə x a n ı m. Bəli

C ü m ə z a d ə. *(qəzeti  üzündən çəkmədən).* Arvad, nə istəyirsən?

H ə m ş ə x a n ı m. Bəs məni çağırmadınız?

C ü m ə z a d ə. *(qəzeti  üzündən çəkir).* Xeyr. Yox! Nırç! Sən xoflanmısan, orta hesabla, nədir?!

**Həmşəxanım qəfildən nə isə görüb qəşş edir.**

H ə m ş ə x a n ı m. Yoldaş Cəbi Cüməzadə...bu dəqiqə yerdə qalanlarda axışıb gələcək kabinetinizə.

C ü m ə z a d ə. Niyə? Nə olub? Buynuz çıxarmışam?!

H ə m ş ə x a n ı m. *(gülməyini güclə boğur).* Sən demə zəng düymələrinin üstündə oturub qurdalanırsınız. Eşidirsiniz, bütün fabriki cingilti götürüb başına, ha... ha... ha... Cüməzadə yerə atılır. Həmşəxanım çıxıb sil-süpürlə məşğul olur. Diləzbər gülərək qapıdan boylanır.

D i l ə z b ə r. Olar?

C ü m ə z a d ə. *(acıqlı).* Ay qız qurtardıq da! Mən heç kəsi çağırmamışam, zəng xətlərində balaşa kontakt olmuşdu, onu da düzəltdik.

D i l ə z b ə r. Yoldaş Cüməzadə, fərz eləyin mən özüm gəlmişəm.

C ü m ə z a d ə. Fərz eləyək ki, fərz elədim. Sonra?

D i l ə z b ə r. *(içəri girir.)* Sizdən ciddi bir xahişim var.

C ü m ə z a d ə. Fərz elə ki, eşidirəm səni. Sözün?

D i l ə z b ə r. Əgər mümkünsə, mənim iyirmi beş dəzgahda işləməyimə icazə verin.

C ü m ə z a d ə. Niyə? Canından bezmisən?

D i l ə z b ə r. Xeyr. Yerimdə saymaq istəmirəm. Mən bu barədə texnoloq Firuzl  yoldaşla da danışmışam. Etitaz eləmir.  Axı Şəfiqənin briqadası ilə bizimki yarışır. O da iyirmi dörd dəzgahla işləyir, mən də...

C ü m ə z a d ə. Gələrəm, sexdə danışarıq.

D i l ə z b ə r. Sağ olun.

C ü m ə z a d ə. Fərz eləyək, xoş gəldin. *(Diləzbər, ardınca Cüməzadə çıxır. Fasilə zəngi çalınır.)* Həmişə, məni soruşsalar, saat ikidə olacağam.

H ə m ş ə x a n ı m. Baş üstə.

**Cüməzadə dəhlizdə Şəfiqə ilə rastlaşır.**

Ş ə f i q ə. Yoldaş Cüməzadə, əyirici fabrik bizə sapı cirə- duz kimi göndərir. Briqadamda məkiklər bomboşdur. Belə getsə, bir azdan dəzgahlarımız işsiz dayanacaq.

C ü m ə z a d ə. Darıxma məşğul olarıq.

Ş ə f i q ə. Vaxt gözləmir, yoldaş Cüməzadə. Toxucu üçün hər dəqiqə parça deməkdir.

C ü m ə z a d ə.  Ay qız, elə danışırsan ki, guya təqsirkar mənəm. Gedib əyiruci sexin rəisi ilə danışacağam?

Ş ə f i q ə. O sizin öz işinizdir.

C ü m ə z a d ə. Indi acmışam, nahara çıxıram.

Ş ə f i q ə. Onu bilin ki, insana vaxtaşırı qida, maşına benzin gərək  olduğu kimi, dəzgaha da sap gərəkdir. *(Gedir.)*

C ü m ə z a d ə. Buna bax a... Mənə cib-cib öyrədir. *(Gedir.)*

**Kabinetdə telefon zəng çalır. Həmşəxanım keçib süpürgəni dikəldərək direktor stulunda əyləşir, dəstəyi götürür.**

H ə m ş ə x a n ı m. Bəli. Eşidirəm. Xeyr, direktor deyil. Əvəzi də deyil. Süpürgəçi-katibədir danışan. Bəli, bu da təzə çıxıb. *(Kənara.)*  Öz aramızdır, bu direktorluq da ey... bu katibəlik də bir matah şey deyil. *(Dəstəyə.)* Hə...Bıy! Ələsgər, sənsən? Tanımadım, yanıma gəlmək istəyirsən? Saat ikiyəcən. Buyur, gözləyirəm. *(Dəstəyi qoyub mütaliyə edir. Telefon səslənir. Dəstəyi götürmədən cavab verir.)* Bəli, eşidirəm. *(Zəng çalınır.)* Bəli! Bəli! *(Cəld dəstəyi qaldırır.)*

Əleykəsalam. Amma onu bilin ki, siz direktorla yox, süpürgəçi - katibə ilə danışırsınız. Ona görə ki, yəqin bunu bilsəydiniz mənə “siz”, “siz” deməzdiniz. Qəbuluma düşmək istəyirsiniz? Buna bax, mən ələ salmalı adam deyiləm. Necə? Məni tanıyırsınız? Bəli, Həmşəxanım. Buyurun. Saat ikiyəcən. *(Dəstəyi qoyub fikirləşir.)* görəsən qəbuluma düşmək istəyən bu qadın kimdir? Eh... bircə il bu toxuculuq fabrikinin rəhbərliyini tapşıraydılar mənə, onda bilərdim neylərdim. Birinci növbədə Cüməzadənin əmrini verib çıxardardım. Bütün dəzgahlar saat kimi işlərdi. *(Keçib katibə otağından çaydanı götürür.)* A... Bəs bunun qapağı hanı? *(Axtarır.)* Harda qoymuşam görəsən...

**Gedir. D i l ə z b ə r, ardınca da A z ə r gəlir.**

A z ə r. Diləzbər.

D i l ə z b ə r. Nə var?

A z ə r. “Getmə dəli ceyranım, ayaq saxla, sözüm var,
Qurban sənə bu canım, ayaq saxla, sözüm var.

D i l ə z b ə r. Hə, ayaq saxladım, nə deyirsən, Azər?

A z ə r. *(yaxınlaşır).* Sən bilən bu dəqiqə camaat nahara getdiyi bir vaxtda təklikdə əlimə düşdüyün bu məqamda sənə nə deyərdim?

D i l ə z b ə r. *(utanır).* Bilirəm... Yenə deyəcəksən ki...

A z ə r. Deyirəm, sən də acmış olarsan. Gedək adama bir borş, bir kotlet yeyək.

D i l ə z b ə r. *(tutulur).* Məni elə buna görə saxlamısan?! Borşu, kotleti sənsiz də yeyə bilərəm

**Getmək istəyir, Azər biləyindən yapışır.**

A z ə r. Dayan, Diləzbər. Çoxdandır sənə ayrı söz demək istəyirəm. Məni bu qədər incitdiyin bəsdir.

Azər sənin eşqinlə
Min xəyala dalıbdır.
Eylə mənə bir nəzər,
Diləzbər, ay Diləzbər.

D i l ə z b ə r. Neçə vaxdır demirəm,
Ürəyimdə qalıbdır
Fikrimdə axşam, səhər,
Təkcə sənsən, sən Azər.

A z ə r. Sənin şəhla gözlərin
Qəlbimə od salıbdır.
Gəl söylə bir xoş xəbər,

Diləzbər, ay Diləzbər.

D i l ə z b ə r. Ixtiyarı əlimdən
Məhəbbətin alıbdır.
Adı dilimdə əzbər
Təkcə sənsən, sən Azər.

B i r l i k d ə. Mənim şanım-şohrətim
Məhəbbətdə qismətim
Təkcə sənsən, Diləzbər,
Təkcə sənsən, sən Azər.

A z ə r. Axır ki, dilim, ürəyim boşaldı. Heç olmasa bu gecə məhəbbətinlə uyuyub rahat yataram.

D i l ə z b ə r. *(kənara baxır).* Gedək, Azər. Həmşəxanım bibi gəlir. Qoy o bizi bir yerdə görməsin. Sonra utandığımdan üzünə baxa bilmərəm.

A z ə r. Bibi? Məgər sən Həmişəxanıın qardaşı qızısan?

D i l ə z b ə r. Yox... Elə evlərində qaldığım üçün ona bibi deyirəm.

A z ə r. Gedək, sənə də qurban olum, bu gündən sonra bibişkana da.

**Gedirlər. H ə m ş ə x a n ı m qayıdır. Çay süzüb içir. Muxtar gəlib kabinetə boylanır.**

H ə m ş ə x a n ı m. Muxtar, çaynikin qapağını görmənisən?

M u x t a r. Yox, Cəbi qağa haradadır?

H ə m ş ə x a n ı m. Cibbimdə. Yenə də xəbərçiliyə gəlmisən?

M u x t a r. Arvad, əməlli danış! O nə sözdür?!

H ə m ş ə x a n ı m. Tanımıram səni?! Şpiyonun dal ayağısan!

M u x t a r. Mən bu fabrikin elektrikiyəm.

H ə m ş ə x a n ı m. Ay, yalansa səni elektrik vursun.

**H ü n d ü r Ə l ə s g ə r maşın açarlarını əlində oynada-oynada gəlir.**

Ə l ə s g ə r. Kimi görməmişəmsə salaməlyküm.

H ə m ş ə x a n ı m. Əleykiməsalam

M u x t a r. *(qeyzlə onları süzür).* Vay!.. Vay!.. Vay!.. *(Gedir.)*

Ə l ə s g ə r. Həmşəxanım, gör bu katibə stolu necə də yaraşır sənə, bəh! Bəh! Bəh!

H ə m ş ə x a n ı m. Daha demə, Ələsgər. Böyüdüblər vəzifəmi. Əşi, bu katibə gedib *(qarnını işarə edir)* özüm üstüörtülü deyirəm ey... Dekretdədir. Başa düşdün?

Ə l ə s g ə r. Rəhmətliyin qızı. Daha bunun harası sekretdədir. Üstüaçıq deynən, ikicanlıdır də.

H ə m ş ə x a n ı m. Cəbi Cüməzadə yerinə müvəqqəti adam götürmədi. Xahiş elədi, hərdən buralara da mən baş çəkim.

Ə l ə s g ə r. *(zarafatla).* Adamı elə - belə böyüdürlər də, Həmşəxanım. Görürsən ki, süpürgəçi keçdi – katibə oldu, direktorun xoşuna gəldi – kadrlar şöbəsinin müdiri qoydu.

H ə m ş ə x a n ı m. Ondan sonra da görürsən direktor endi sex rəisi oldu.

Ə l ə s g ə r. Bir az da üzü aşağı itələdilər, mənim kimi yükdaşıyan oldu. *(Gülürlər.)*

H ə m ş ə x a n ı m. Bura bax, *(Dili çaşır.)* Hündür Ələsgər... *(Gülür.)* A kişi, sən ki, bəstəboysan, bu hündür nədir yapışdırıblar adının böyrünə?

Ə l ə s g ə r. Həmşəxanım, səndən qabaq bu fabrikdə bir dənə də Ələsgər var idi. Yalan olmasın, bax... bu boydana *(Göstərir.)* bizi dəyişik salmamaq üçün ona pota Ələsgər, mənə hündür Ələsgər deyirdilər. O vaxtdan adım belə qalıb. Yox, əgər indi, söz məsələtün, sənin hündürdən xöşun gəlmir, alçaq Ələsgər de.

H ə m ş ə x a n ı m. A... Elə şey olar? Alçaq neyçün. Hə... Onu soruşacaqdım, axı. Eşitdim lotoreya biletin”Zoporojes” udub. Minib gəzirsən, səsə salmırsan?

Ə l ə s g ə r. *(şövqə gəlir).* Bəli. Daha onun üstünü vurma, Həmşəxanım!

Belə yolla maşın udmaq ki var ey,
Ayrı cür şeydi, sən öl.
Kim ki, öz bəxtinə şək-şübhə edir,
O adam keydi, sən öl.
Yola çıxcaq maşınım quş tək uçur,
Qarğadır, leydir, sən öl.
Siqnalım dil-dil ötür avazınan,
Elə bil neydi, sən öl.
Saxlayıb yolda araq yox, su da iç,
Nəşədir, meydir, sən öl.
Görəsən rulda Ələsgər necə dartır özünü,
Sanki lap bəydi, sən öl.

H ə m ş ə x a n ı m. Ay maşallah!

Ə l ə s g ə r. Atalar deyib, kişini cavan saxlar yaxşı arvad, bir də...

H ə m ş ə x a n ı m. Yaxşı at.

Ə l ə s g ə r. At yox, saz maşın. İndi Həmşəxanım, məni cavanlaşdıran işin yarısı düzəlib, yarısı qalıb. Bir məsələ var, o da baş tutsa, əhd eyləmişəm... bığ qoyacağam.

H ə m ş ə x a n ı m. *(eyhamla).* Sən bığını qoy, o da düzələr.

Ə l ə s g ə r. Srağa gün fabrikə maşınla gəlmişdim. Evə gedəndə bu qızlar bəyəm daraşmadılar mənə. Maşın oldu arı pətəyi. Iyirmisi birdən yalvardı ki, məni apar. Dedim, insafınız yoxdur, vicdanınız olsun, bu bezrazmer deyil ki, dartam

kökəlsin. *Hamınızı hopdum necə mindirim "Zaporojes"ə yerləşərəm mən, bir də söz məsələtün, sən Həmşəxanım. Lazım bilsək, iki nəfər də qeyrisini götürərik.*

H ə m ş ə x a n ı m. Qeyrisi lazım deyil. Elə ikimiz.

Ə l ə s g ə r. Nə deyirəm ki.

H ə m ş ə x a n ı m. Yaxşı, bu tezlikdə sürməyi necə öyrəndin?

Ə l ə s g ə r. Uşaqlıqla yelsebet, motosklet çox sürmüşəm.

H ə m ş ə x a n ı m. Nə qədər getmisən?

Ə l ə s g ə r. Üç min kilometr. Plombunu təzəcə açmışam. Həmşəxanım, Ələsgər canı, maşın deyəndə "Zaporojes"dir. Əşi, "Volqa" nədir, "Moskviç" nədir onun qabağında?

H ə m ş ə x a n ı m. Daha ağ eləmə də. "Volqa" nı ötə bilməz.

Ə l ə s g ə r. Gəl höcətləşək, bu bazar günü çıxaq səninlə Şamaxı yoluna. Mən "Volqa"nı ötməsəm... bığ qoyaram! Tormuz zad bilmir ki. Elə rulun dalında oturduğunu görürsən. Motor ki, arxadan itələyir, "vıyy" qoyur üstünə, götürülür yerindən. Saatda həşdad necədir səninçün?! Doxsan, necədir səninçün?! Yüz! Yüz on! Yüz əlli... minus otuz...

H ə m ş ə x a n ı m. A kişi ayağını tormuza bas, xata-zad çıxararsan.

Ə l ə s g ə r. Qorxma, bir dənə gözmuncuğunu "Zaporojes"ə bağlamışam, bir dənə də özümə.

H ə m ş ə x a n ı m. Nə rəngdədir maşının?

**Ələsgər dər-divara göz gəzdirir, axtardığı rəngi tapa bilmir.**

Ə l ə s g ə r. Həmşəxanım, sarıkök, xına görmüsən?

H ə m ş ə x a n ı m. Görmüşəm.

Ə l ə s g ə r. Bir barmaq o sarıkökdən götür, həvəngdə əz ( Şlyapasını çıxarıb ona verir). Tök bu kasadakı ilıq suyun içinə, üstünə də bir çimdik xna əlavə elə, sonra qarışdır.

H ə m ş ə x a n ı m. *(göstərir).* Qarışdırdım.

Ə l ə s g ə r. Qoy bir az qalsın, dəm alsın. *(İkisi də durub gözləyir.)* Hə, nə rəng oldu?

H ə m ş ə x a n ı m. Sarıkök- xınayı

Ə l ə s g ə r. Götür bir dənə də toyuq yumurtası sındır.

H ə m ş ə x a n ı m. Sındırdım.

Ə l ə s g ə r. Ağını tulla

H ə m ş ə x a n ı m. A... Neyçün tullayım, içərəm də

Ə l ə s g ə r.Yaxşı ağını iç. Sarısını sal o kasaya

H ə m ş ə x a n ı m. Saldım.

Ə l ə s g ə r. Qaşığı götür, bir də əməlli qarışdır.

H ə m ş ə x a n ı m. Qarışdırdım.

Ə l ə s g ə r. Nə rəng oldu?

H ə m ş ə x a n ı m. *(fikirləşir).* İnnnabı

Ə l ə s g ə r. Hə...Atan rəhmətlik. Bax o rəngdədir maşınım. *(Şlyapanı alıb başına qoyur.)*

H ə m ş ə x a n ı m. Sağlıqla işlədəsən. *(Gözü onun ayaqlarına sataşır.)* Çəkmələrin də mübarək, Ələsgər.

Ə l ə s g ə r. Çox sağ ol. Bunları təzə almışam özümçün. Təzə deyəndə ki, bir beş-altı kilometr getmişəm.

**Z ə r n i ş a n gəlir.**

Z ə r n i ş a n. Olar.

H ə m ş ə x a n ı m. Buyur.

Ə l ə s g ə r. Mən gəlmişdim gedək bir yerdə nahar eləyək, olmadı.

**Gedir.**

Z ə r n i ş a n. Salam, Həmşəxanım bacı.

H ə m ş ə x a n ı m. Salam, əyləş.

Z ə r n i ş a n. Tanış olaq.*(Əlini uzadır.)* Zərnişan. Mən vaxtını çox almayacağam.

H ə m ş ə x a n ı m. Belə bilirəm, bizim fabrikdə işə girmək istəyirsən, eləmi?

Z ə r n i ş a n. *(oturur).* Xeyr. Mən Cəbinin yoldaşıyam.

H ə m ş ə x a n ı m. Cəbi Cüməzadənin arvadısan?

Z ə r n i ş a n. Bəli, səndən ciddi bir təvəqqəm var. Xahiş edirəm mənim bura gəlməyimi, nə danışdığımı ərim bilməsin

H ə m ş ə x a n ı m. O barədə tamam xatircəm ol. Bax... Yanımda, uzağa getmirəm, elə Cəbi Cüməzadənin hulqumuna bıçaq qoyub, başını bədənindən ayırsalar ha... heç kəsə demərəm. Xasiyyətim belədir.

Z ə r n i ş a n. Həmşəxanım bacı, səndən nə gizlin, bizim kişi çox şorgözdür. Elə onun ucbatından da keçən ay köhnə vəzifəsindən götürüb bura göndərdilər.

H ə m ş ə x a n ı m. *(qəhqəhə çəkir).* Yaman da tədbir görüblər! Cəbi Cüməzadə şorgöz, bizim fabrikdə də qız inkubator cücəsi kimi. Amma adamın allahı var, hələlik mən öz barəmdə ondan bir şey görməmişəm.

Z ə r n i ş a n. Cəbi, sizin katibənin yerinə Bənövşə adlı birisini götürmək istəyirdi. Qoymadım. Ax!.. Bircə o ilan çalmış girimə keçəydi, mən bilərdim neylərdim. Dedim, Cəbi, əlini döşünə qoy! Onu görməyəcəksən! Müdir qayıdıb

gələnəcən elə Həmşəxanım bacı öz işini də aparar, katibəni də əvəz edər. Savadlı qadındır.

H ə m ş ə x a n ı m. Bu kişilərin nə cavanına, nə də qocasına etibar yoxdur. Ələlxüsus yayda. Canlarına ki, balaca isti dəydi, civə kimi bir yerdə dayana bilmirlər. Biri elə bizim hündür Ələsgər...

Z ə r n i ş a n. Kim?

H ə m ş ə x a n ı m. Heç, sözünü de.

Z ə r n i ş a n. Eh... O Bənövşə əndamıyanmışa bənd olanı Cəbi evdən yaman soyuyub. Neçə vaxtdır kino nədir, teatr nədir – bilmirəm. Keçən yaş günümdə insafsız bir dəstə gül alıb məni təbrik eləmədi. Qabaqdan bayram gəlir. Yadına düşəcəyəmmi? Yox. danışdım dərdim təzələndi.

H ə m ş ə x a n ı m. Ürəyini qısma.

Z ə r n i ş a n. Olan – olmaz bir oğlumuz var. Onun da tərbiyəsini korlayıb. Orta məktəbi güclə qurtardı. Ikinci ildir avara - sərgərdan gəzir. Fikirləşdik, bəlkə evlənsə ağıllanar. Neçə qapıya getdik, qız verən olmadı.

H ə m ş ə x a n ı m. Hə... Demək, Cəbi belə Cəbi imiş.

Z ə r n i ş a n. Sən allah, Həmşəxanım, bu kişinin üstündə möhkəm göz ol. Gördün ki, ayağını qırağa uzadır, çək ipindən.

H ə m ş ə x a n ı m. *(qalxır).* Zərnişan xanım, sən icazə ver, müdirimiz gəlincəyədək mən o Cəbini elə yumşaldım ki, lap stəkana töküb içməli isgəncəbi olsun. Razısan?

Z ə r n i ş a n. Onu düzəltmək çətin məsələdir. Axı neyləyəcəksən?

H ə m ş ə x a n ı m. *(yan-yörəsinə baxır).* Bir azdan Cəbi Cüməzadə gəlib oturacaq yerində. Sən get fabrikin böyründəki avtomatdan zəng çal. O Bənövşənin adından danış. Gürüş təyin elə. Başa düşdün? Dalısıynan işin olmasın.

Z ə r n i ş a n. Vəssalam?

H ə m ş ə x a n ı m. Vəssalam! Yubanma. Sabah nəticəsini bilərsən.

**Pıçıldaşa – pıçıldaşa gedirlər. F i r u z l a Ş ə f i q ə gəlir.**

F i r u z. Mən heç kəsdən çəkinmirəm, Şəfiqə. Istəyirsən lap fabrikin damına çıxıb aləmə car çəkim ki, “Ay camaat, mən Şəfiqəni sevirəm!”

Ş ə f i q ə. Firuz, mən istəmirəm ki, bizim bu münasibətimizdən başqalaraı xəbərdar olsun.

F i r u z. Axı niyə?

Ş ə f i q ə. Ona görə ki, fabrikdə mənim adıma nə yaxşı söz deyilsə, səndən biləcəklər.

F i r u z. Qoy kim nə düşünür düşünsün. Sən onsuzda fabrikimizin fəxrisən, Şəfiqə. Eh... Səninçün o qədər arzularım var ki!

Arzu şəlalədir, tükənməz ardı,
Bilməzdim sevgidə nə hikmət vardı,
Sənsiz həyatımın gülü solardı,
Ömrümün qisməti, inanırsanmı?

Ş ə f i q ə. Mən bu qismətə,
İlk məhəbbətə,
Könül vermədən,
Əhdi-peymana
Necə inanım?

F i r u z. Şirin arzularım gəlməsin gözə,
Yandırıb qəlbimi döndərdin közə,
Mən səni sevməsəm, yoxsa hər sözə,
Inanmazdım qəti, inanırsanmı?

Ş ə f i q ə. Düz ilqarını
Etibarını,
Hələ görmədən,
Mən bir oğlana,
Necə inanım?

B i r l i k d ə. Hər söz nahaqdır
Sevgi sınaqdır.
Söylə gürüm sən,
Bu imtahana
Inanırsanmı?
Necə inanım?

F i r u z. Şəfiqə, sağlıq olsun, sən məni bərkdən-boşdan sınayarsan. Indi isə qəzetdən gəlmiş müxbiri sexinizə aparıb işinizlə tanış elə. Öz barəndə nə yaxşı şey bilirsənsə, hamısını danış, qoy yazsın.

Ş ə f i q ə. Ay Firuz, axı mən öz-özümü necə tərifləyim? Necə deyim ki, beş aydır iyirmi dörd dəzgahla qüsursuz işləyirəm? Gündə yeddi yüz metr parça toxuyuram?

F i r u z. Heç utanmaq lazım deyil, Şəfiqə. Onu bil ki, ayrı-ayrı adamların başucalığı sexin müvəffəqiyyətidir. Sexlərin yaxşı işləməsi isə ümumi fabrikin şöhrətidir. Onu da de ki, seximizə keçən il peşə məktəbindən gəlmiş Diləzbəri də mən öyrətmişəm. Ilk günlər on - on iki dəzgahı idarə etməyə çətinlik çəkirdi. Indi o briqada rəhbəridir, mənimlə yarışır. Iyirmi beş dəzgahla sərbəst işləyir.

Ş ə f i q ə. Iyirmi beş yox, iyirmi dörd.

F i r u z. Səhv edirsən, Diləzbər yarımca saat əvvəl iyirmi beşinci dəzgahı da qəbul etdi.

Ş ə f i q ə. *(tutulur).* Necə? Be - lə de...

F i r u z. Diləzbər zirək qızdır. Onun gəlişi ilə srxdə bir canlanma yaranmışdır.

Ş ə f i q ə. *(fikirli).* O qızla yarışmaq mənim üçün gündən-günə çətinləşir.

F i r u z. Yarış mübarizədir. Bu isə adamlardan zəhmət, bilik və bacarıq tələb edir. *(Gedirlər, həmşəxanım qayıdır,)*

H ə m ş ə x a n ı m. Hə... İndi tamaşa edərsiniz mən o Cəbi Cüməzadənin başına nə oyun açacağam.

**Cüməzadə gəlir.**

C ü m ə z a d ə. Həmşə, məni soruşan olmayıb? *(Həmşəxanım dinmir.)* Həmşə, səninləyəm, məni soruşan olmayıb?! *(Həmşəxanım yenə də dinmir. Cüməzadə ucadan.)* Karsan, eşitmirsən?

H ə m ş ə x a n ı m. Kar deyiləm, eşidirəm. Cəbi Cümə.

C ü m ə z a d ə. *(heyrətlənir).* Ay arvad, o nədir? Mən Cəbi Cüməyəm?

H ə m ş ə x a n ı m. Bəs mən Həmşəyəm? Yadınızda yaxşı saxlayın, mən fasiləsiz, vxodnoysuz həmişə xanımam!

C ü m ə z a d ə. Pah atonan! *(İbarə ilə.)* Möhtərəm fasiləsiz, vxodnoysuz Həmşəxanım əgər mümkünsə, sizə əziyyət deyilsə, cavab verin: məni soruşan-filan olmayıb?

H ə m ş ə x a n ı m. *( Eyni ibarə ilə.)* Möhtərəm müdirəvəzi Cəbi, Cüməzadə, sualınıza cavab vermək mümükündür və bu bizə əziyyət deyil. Sizi soruşan-filan olmayıb.

C ü m ə z a d ə. Ay arvad, qələt eləmədim ki, orta hesabla səni özümə müvəqqəti katibə qoydum. Bundan sonra mənimlə qoz-qoz oynayacaqsan?

**Telefon zəng çalır. Həmşəxanım dəstəyi götürmədən.**

H ə m ş ə x a n ı m. Bəli, bəli. Eşidirəm. *(Cəld dəstəyi götürür.)* Bəli, bəli... Xeyr. süpürgəçi – katibədir. Yoldaş Cəbi Cüməzadəni? Siz kimsiniz? Hə... Bu dəqiqə...

Cüməzadə kabinetə keçib telefonla danışanda Həmşəxanım tez bir vərəq kağız götürüb içəri girir. Güməzadə onu görmür.

C ü m ə z a d ə. Hə... Bənövşə! Mənim göyərçinim salam, xöş gördük. Sənin gözəlliyin. Elə mən də darıxmışdım sənin üçün. Bu axşam neyləyirəm? Lazımamsa bekar ola bilərəm. Sirkə? Kio - ya baxmaq istəyirsən? Mənim gözlərim üstə. Səkkizin yarısında. Elə sirkin qabağında. Sağ ol. Mən də... *(Dəstəyi öpür.)* bu Bənövşə yaman döşümə yatır. Zalım qızı rezin kimi şeydir. *(Həmşəxanımı görüb diksinir.)* Həmşəxanım sən burdasan?..

H ə m ş ə x a n ı m. *(ciddi).* Burdayam. Özü də hamısını eşidirdim. *(Kağızı ona uzadır.)* Buna qol çəkin... Yaxşı deyil sizin üçün, yoldaş Cüməzadə!

C ü m ə z a d ə. Hə?

H ə m ş ə x a n ı m. Arvadınızı evdə qoyub başqa qadınla sirkə getmək.

C ü m ə z a d ə. Sən xərifləyirsən nədir? Bəs mən kiminlə danışırdım?

H ə m ş ə x a n ı m. Hələ görməmişik əlli yaşında kişi də öz arvadına "mənim göyərçinim" desin. Sizin qadının adı Bənövşədir, Zərnişan? Heç eybi yoxdur!

**Çıxır. Cüməzadə narahat halda otaqda var-gəl edir.**

C ü m ə z a d ə. Yaman yerdə axşamladıq. Bu bizim arvadı hardan tanıyır? Zərnişanın qulağına çatsa, həşir – qiyamət qopacaq. Ancaq ondan qorxmuram. Qaynatam eşitsə pis olacaq. Məni bu fabrikə onun xahişi ilə götürüblər. *(Başını tutur. Telefon zəng çalır. Dəstəyi qaldırır.)* Bəli.. Kimi? Eh!.. *(Qapını aralayır.)* Həmşə... Həmşəxanım, zəhmət olmasa, dəstəyi götürün, sizi istəyirlər.

**Həmşəxanım danışanda Cüməzadə eşidir.**

H ə m ş ə x a n ı m. Alo? Kimdir? Ələsgər, sənsən? Hə... Hə... Ay saqqalı ağarmış, elə boş-boşuna minək bu "Zaporojesə", düşək şəhərin canına? Yox. Mən bu axşam səni sirkə dəvət edirəm. Kio. Başın var olsun. Saat səkkizin yarısında. Elə sirkin qabağında görüşərik. *(Dəstəyi qoyur.)*

C ü m ə z a d ə. Baho! Bu arvad məni abırdan salacaq. Onu mütləq dilə tutub, yola gətirməliyəm. *(Qapının arasından mülayim səslə.)* Həmşəxanım...

H ə m ş ə x a n ı m. *(ciddi).* Eşidirəm.

C ü m ə z a d ə. Zəhmət olmasa, beşcə dəqiqə yanıma gəlin. *(Həmşəxanım qalxıb kabinetə keçir.)* Əyləşin o yumşaq kresloda.

H ə m ş ə x a n ı m. *(oturmur).* Tələsirəm, qısa eləyin.

C ü m ə z a d ə. Yaxşı də, mısmırığını sallatma. Daha öldürməyəcəksən ki, bizi...

H ə m ş ə x a n ı m. Mən nə eləyəcəyəm, yaxşı bilirəm!

C ü m ə z a d ə. Arvadıma deyəcəksən? İclasda danışacaqsan?

H ə m ş ə x a n ı m. Hələ üstəlik o Bənövşəni də məhşər ayağına çəkdirəcəyəm.

C ü m ə z a d ə. *(tərini silir),* Biz daha sirkə gedəsi olmadıq. Səndən acizanə xahiş edirəm:

Açma bu sirrimi gəl,
Sən canın, Həmşəxanım.

Evdə tufan qoparar,
Eşitsə Zərnişanım.

H ə m ş ə x a n ı m. Kaş görəydim o günü,
Nə qiyamət caz olar!
Hansı qeyrətli kişi,
Bu cür arvadbaz olar?!

C ü m ə z a d ə. Bizim arvad, bilirəm,
Soyacaqdır dərimi.
Heç aman verməyəcək,
Yolacaq tüklərimi.

H ə m ş ə x a n ı m. Lap əcəb eyləyəcək,
Başın onda daz olar,
Hansı qeyrətli kişi,
Bu cür arvadbaz olar?!

C ü m ə z a d ə. Yaxşı, nə deyirsən, nə istəyirsən, orta hesabla, Həmşəxanım, mən hazır. Ancaq bir daş altda, bir daş üstdə.

H ə m ş ə x a n ı m. Əlini cibinə sal görüm.

C ü m ə z a d ə. *(qorxa-qorxa pul çıxarır).* On verərsəm, bəsdir??

H ə m ş ə x a n ı m. On mənimçün az olar.

C ü m ə z a d ə. Yaxşı, bir beş də götür.

H ə m ş ə x a n ı m. Az alan qanmaz olar.

C ü m ə z a d ə. Əlli versəm, necədir?

H ə m ş ə x a n ı m. Onda kefim saz olar

C ü m ə z a d ə. Məni lap tərlətdin,
Bu qədər naz olar?!

H ə m ş ə x a n ı m. Hansı qeyrətli kişi,
Bu cür arvadbaz olar?!

*Pərdə*

## *İKİNCİ PƏRDƏDƏN QABAQ*
## **İNTERMEDİYA**

**Küçədir. Əlində çətir tutmuş Diləzbərlə Azər gəlir.**

A z ə r. Sən sevgilim, şöhrətimsən, şanımsan,
Kənar gəzmə inciyərəm, canımsan,
gəl, gəl...

D i l ə z b ə r. Səndən ayrı uzaq gəzə bilmərəm,

Istəsəmdə buna dözə bilmərəm
gəl, gəl...
B i r l i k d ə. Nə zamandır ixtiyarım səndədir,
gəl, gəl...

Xoş günlərim, növbaharım səndədir.
gəl, gəl...

A z ə r. Diləzbər, anam mənə rahatlıq vermir, hər gün soruşur: onu haçan gətirəcəksən evimizə.

D i l ə z b ə r. Kimi?

A z ə r. Səni deyir. Arvad məndən çox tələsir.

D i l ə z b ə r. *(utanır).* Nə danışırsan, Azər.

A z ə r. Diləzbər, sən məni qınama. Bu vaxtadək tələsmirdim, ona görə ki, ev yox idi. Yerli komitənin sədri Firuz deyir, fabrikdən onsuzda hərənizə bir mənzil verməliydik. Sizin məhəbbətiniz bizim də xeyrimizə oldu. Indi ikinizə biri bəsdir. Diləzbərin payına düşən mənzillə də başqasını təmin etdik.

D i l ə z b ə r. *(zarafatla).* Azər, belə görürəm sən subaylıqdan bezirsən.

A z ə r. Xeyr. Mən subaylıqdan bezmirəm. Sənsizliyə dözmürəm.

D i l ə z b ə r. Yox, bu tezliklə mən evlənməyə razı deyiləm. Axı nə olub?

A z ə r. Istəyirəm keçməsin
Bircə dəqiqəm sənsiz.
Təzə mənzil darıxır,
Həm mənsizdir, həm sənsiz.

Kim olar bu həyatda
Könlümə həmdəm sənsiz.
Təzə mənzil darıxır,
Həm mənsizdir, həm sənsiz.

Insafa gəl düşün bir,
Çəkmərəmmi qəm sənsiz?
Təzə mənzil darıxır,
Həm mənsizdir, həm sənsiz.

D i l ə z b ə r. *(mehribanlıqla ona qısılır),* Daha get, Azər. Buracan məni ötürdün, bəsdir. Işdən çıxmısan, yorğunsan.

A z ə r. Mən deyənə razısanmı, Diləzbər?! *(Diləzbər kirpiklərini endirib qaldırır.)* Sağ ol! Sabahdan toya hazırlıq işləri başlanır!

**A z ə r gedir. Diləzbər Təsadüflə qarşılaşır. Qızın ona baxdığını görən Təsadüf dayanır.**

T ə s a d ü f. Sizi iki, yaxud, üç dəqiqə yubatmaq olarmı?

D i l ə z b ə r. Əgər çox vacibdirsə, buyurun.

T ə s a d ü f. Icazə verin mənə elə mənalı nəzər fırlatmağınızın real səbəbini bilim.

D i l ə z b ə r. *(gülümsəyir).* Mən... Bağışlayın, elə - belə baxdım.

T ə s a d ü f. Inanmıram. Elə - belə və mənalı nəzərlər? Bu ki, təzaddır.

D i l ə z b ə r. Qorxuram deyəm, xətrinizə dəysin.

T ə s a d ü f. Deyin. Mən haqsız tənqidlərə çox məruz qalmışam. Son vaxtlar o mənimçün bir növ sport olmuşdur. Inanın ki, elə şair kimi də tənqiddə bərkimişəm. əvvvəllər belə deyildim.

D i l ə z b ə r. Demək siz şairsiniz?

T ə s a d ü f. Özü də lap xalisindən! Naturalnı. Netto!

D i l ə z b ə r. Bağışlayın, adınız nədir?

T ə s a d ü f. Elə isə tanış olaq: adım Təsadüfdür.

**Diləzbərin çətirinin ucundan tutub sıxır.**

D i l ə z b ə r. *(gülür).* Təsadüf?

T ə s a d ü f. Bilirsinnizmi, mənim valideynlərin evləndikdən sonra əlbət ki, onların toyu yadıma gəlmir... uzun müddət uşaqları olmayıb. Günlərin bir günündə gözlənilmədən, təsadüfən mən doğulmuşam, hədsiz seviniblər. Zavallılar adımı da Təsadüf qoyublar.

D i l ə z b ə r. Maraqlıdır...

T ə s a d ü f. Bəli, mənim tərcümeyi-halım son dərəcə maraqlı və mənalıdır.

D i l ə z b ə r. Təsadüf... Belə şair eşitməmişəm.

T ə s a d ü f. Eşitməzsiniz də. Çünki mənim təxəllüsüm var. Şeyirlərimin altında ayrı cür imza edirəm.

D i l ə z b ə r. Təxəllüsünüz necədir?

T ə s a d ü f. T.nöqtə Hünərli. Tanıdınızmı?

D i l ə z b ə r. Xeyr.Hərçənd şair azdır. Ancaq bu saat şeir yazanlar o qədər çoxalıb ki, heç özləri bir-birini tanımırlar.

T ə s a d ü f. Səhv etmirsiniz. Lakin mən o tayfadan deyiləm. Yaxşı, bəs siz öz adınızı söyləmədiniz?

D i l ə z b ə r. Adım... İksdır.

T ə s a d ü f. Bu tanışlığa ürəkdən şadam. *(Qımışır,)* İndi deyin, bayaq mənə niyə o cür baxdınız?

D i l ə z b ə r. *(qısıla-qısıla).* Doğrusu... saçınız, bakenbardınız elə uzundur ki, sizi tanış bir qıza oxşatdım.

T ə s a d ü f. Xeyr. Mən əslində erkək cinsindənəm. O ki, qaldı bakenbardlarıma, onlarsız mən özümü yarımçıq hesab edirəm.

D i l ə z b ə r. Elədir. Saqqal da qoysaz komplektiniz lap tamamlanar.

T ə s a d ü f. Var elə bir fikrim. Bilirsinizmi, mənim əqidəmcə saqqal bakenbardın məbədidir. Bığ isə insana təmamilə lazımsız bir detaldır. Xüsusən şairə artıq yükdür. Saqqal əgər öz ağırlığı ilə çənəni aşağı dartır və şair ağzının açılmasını asanlaşdırırsa, bığ əksinə, üst dodağı yuxarıdan basıb, ağzı örtülməyə məcbur edir. Elə buna görə də qədim şairlərin, filosofların, natiqlərin böyük bir qismi bığlarını qıxdırıb, saqqallarını uzatmışlar. Bütün bunlardan sonra ürəkdən gələn bir səmimiyyətlə sizə demək istəyirəm ki:

Yanağın tər göbələk,
Desələr ki, lalədir,
Inanma, ay qız, ay qız.
Dodağın kokteyl tək,
Desələr piyalədir,
Inanma, ay qız, ay qız.
Saçını çiyninə tök,
Desələr şəlalədir,
Inanma, ay qız, ay qız.

**Diləzbər ondan xəbərsiz gedir.**

Gözümdən getmə, mələk.
Ölərəm mən yalqız
Ay qız, ay qız ay qız.

*(Başını qaldıranda Diləzbəri görmür.)* Qəribədir, o, birdən – birə kimyaya dönüb təbəxxür etdi! Metamorfoza! Hara qaçdın mənim İksim?

**Fitlə marş çala-çala gedir.**

# İKİNCİ PƏRDƏ

## İKİNCİ ŞƏKİL

**Cəbi Cüməzadənin evi. Eyvanda stol, stul, telefon qoyulmuşdur.Təsadüf əlində kağız-qələm həyətdə gəzişərək şeir qoşur.**

T ə s a d ü f. “Cahanda qranit tək bir parça qaranlıq...” *(Küçədən Ələsgərin maşınının siqnalı eşidilir.)* Eh!.. Bu səs-küydə mən yox, Uitmen də dirilsə, əsər yarada bilməz.

**Ələsgər həyətə girir.**

Ə l ə s g ə r. *(Təsadüfə.)* Bacım, Cəbi Cüməzadənin evi buradır?

T ə s a d ü f. *(acıqla).* Tutalım ki, buradır.

Ə l ə s g ə r. Səhv etmirəmsə, sən Cüməzadənin kiçik baldızısan.

T ə s a d ü f. *(qeyzlənir).* Xeyr!

Ə l ə s g ə r. Ayıb olmasın, bəs nəyisən?

T ə s a d ü f. Oğlu! Erkək fərzəndi!

Ə l ə s g ə r. Bıy! *(Çeyməyini çıxarıb diqqətlə ona baxır.)* Bu oğlanmış ki. Görürəm axı, səsin rayon avtobuslarının siqnalı kimi yoğun çıxır. Bala, atandan, anandan hansı evdədir?

T ə s a d ü f. Paxan gedib, maxan evdədir.

Ə l ə s g ə r. Adə, paxan, maxan nədir? Mən atanı, ananı soruşuram.

T ə s a d ü f. Ay əmi, niyə başa düşmürsən? Ağzımda deyirəm ki, maxan evdədir. Yəni anam.

Ə l ə s g ə r. *(kənara).* Bu nə dildə danışır! *(Təsadüf gəzinir.)* Belə bir təhərsən ey... bədbəxt hadisə - zad üz verməyib?

T ə s a d ü f. Mən hamiləyəm!

Ə l ə s g ə r. Ay bala, deyəndə ki, zənən xeylağısan, boynuna almırsan! Yaxşı, atası kimdir  uşağın?

T ə s a d ü f. O gözəgörünməz ilham...

Ə l ə s g ə r. Alimentin qorxusundan görünməz də!

T ə s a d ü f. Səhərdən - axşamacan çeynədiyim, yediyim karandaş ucudur əmi.

Ə l ə s g ə r. Yerikləyirsən, qızım. Xətrin lavaşana da, turş alça da istər.

T ə s a d ü f. *(gülür).* Əmi, anlamadın. Mən şairəm, arvad deyiləm. Böyük sənətkarlardan biri deyib ki, yazıçının beyninə təzə mövzu düşdümü, olur hamilə. Ta o əsəri yaradıb qurtaranatək yaradıcılıq ağrısı çəkir. Indi mən də o vəziyyətdəyəm.

Ə l ə s g ə r. Ə, get ağlına dua yazdır. Mən ağzıəyrini boynunun ardından tanıyıram. Bu dərrakə ilə səndən şair çıxsa... mən bığ qoyaram! *(Azacıq uzaqlaşır.Təsadüf yenə şeir qoşur,)*

T ə s a d ü f. “Cahanda qranit tək bir parça qaranlıq,
qaranlıqda işıq və sükunət.
Qaranlıq - könlüm,

işıq – məhəbbətimdir”.

Əla!

Ə l ə s g ə r. *(başını bulayır, öz-özünə).* Həmşəxanım məni gözləyir. Gedim çağırım gəlsin. *(Gedir.)*

T ə s a d ü f. “İdealım... İdealım... Adyalım...” Yox bundan sonra qafiyə ilə yazmayacağam. O köhnəlmiş, tapdalanmış formadır. Təzə modada vəznsiz, qafiyəsiz anlaşılmaz şeirlər quraşdıracağam. Qoy heç başa düşməsinlər. Mən intellektual şairəm!

**Z ə r n i ş a n eyvana çıxır. Oğluna qulaq asır.**

İdeal... Bakenbard...Honenhagen...Gözəl sözlərdir, heyif ki şeirə girmir.

“İdealım dumalı asvalt və sürüşkən yol
yolda iki qaraltı...
bakenbard kimi...”

Tapdım sən öləsən*! (Yazır.)* Əladır!

“Bakenbard kimi,
biri sağda,
biri solda...”

Yaxud əksinə.

“Gedirik... gedirik,
hara gedirik, özümüzdə bilmirik.
Məhəbbətim – fakel –
Başımızın üstündə yanır.
Aləm, körpə təbəssümü tək
işıqlanır...
işıqlanır...
işıqlanır...”

lüks! *(İmza atır.)* T nöqtə Hünərli. Bunu sözsüz danışıqsız çap edəcəklər! Mən adi şeir yazmaq istəyirdim gözəl məhəbbət simfoniyası çıxdı! Metamorfoza!!

Z ə r n i ş a n. A bala, Təsadüf, fakel nədir? Bakenbard nədir?

T ə s a d ü f. Fakel – məşəldir, bakenbard - kişi birçəyi.

Z ə r n i ş a n. Onda elə adan balası kimi məşəl, birçək yazda.

T ə s a d ü f. Olmaz. Sən bu priyomları başa düşməzsən. Mən intellektual şairəm. Dünən bir qəribə qıza vurulmuşam, ona yazıram bu şeiri.

Z ə r n i ş a n. *(sevincək aşağı enir),* Axır ki, istədiyini tapdın, bala. Barı gözəldirmi?

T ə s a d ü f. Təxminən gözəldir.

Z ə r n i ş a n. Xoşuna gəlir, hə?

T ə s a d ü f. Yarısı xoşuma gəlir, yarısı yox. Lakin nöqsanlı yerlərini ixtisar və redaktə etmək mümkündür.

Z ə r n i ş a n. Təsadüf, sən nə danışırsan. Xalqın qızının ətini əndamını kəsəcəksən?

T ə s a d ü f. Ətini yox. saçlarını oğlansayağı vurdurub, qırmızı boyaca, şalvar, yaxud mini yubka geysə, zövqümü oxşar.

Z ə r n i ş a n. Onlar sonranın işidir, adı nədir qızın?

T ə s a d ü f. Adı, Diləzdir. Onu da özü demədi, qonşularından soruşub, öyrəndim. Bibisi ilə yalqız yaşayır, o mələk, nağıllardakı kimi.

Z ə r n i ş a n. Hansı peşənin sahibidir?

T ə s a d ü f. Elə mənasız şeylərlə maraqlanmağa dəyməz. Təki o, məni duysun, qiymətləndirsin. Qoy paxan gəlsin, çəkinmədən deyəcəm. Daha mənə təklik əl vermir.

Z ə r n i ş a n. Lap bu tezlikdə?

T ə s a d ü f. Mənim əl yazılarımı toplayıb, səliqəyə salmağa bir adam lazımdır ya yox?

**O, fitlə marş çala-çala gedir**

Z ə r n i ş a n. Kaş bir abırlı yerdən olaydı!

**Evə keçir. Ə l ə s g ə r  H ə m ş ə x a n ı m l a  gəlir.**

Ə l ə s g ə r. Zərnişangilin mənzili budur. Sən keç söhbətini elə, mən də maşına benzin doldurum, gəliram. Bax... *(Siqnalının səsini yamsılayır.)* Belə siqnal versəm, bil ki, səni çağırıram.

H ə m ş ə x a n ı m. Yaxşı, sən allah, dirsəyini pəncərədən çıxarıb, birəlli sürmə. *(Evə keçir.Ələsgər gedir. Bir azdan gülə-gülə Zərnişanla eyvana gəlirlər.)* Hə... gərək dünən görəydin  o Cüməzadə qorxusundan pulları başıma şabaş kimi necə yağdırırdı.

Z ə r n i ş a n. Ancaq bu yolla onu Bənövşədən ayırmaq mümkün olmayacaq. Xəlvətdə yenə görüşəcəklər.

H ə m ş ə x a n ı m. Darıxma, onun da çarəsini qılacağam. *(Pulları çıxarıb Zərnişana verir.)* Halal xoşun olsun. Get, acığına özünə qəşəng bir paltar al, geyin.

Z ə r n i ş a n. Birdən soruşdu bu hardandır, nə deyim?

H ə m ş ə x a n ı m. De, anam alıb.

Z ə r n i ş a n. Məni işləməyə qoysa, heç onun əlinə baxarammı?

H ə m ş ə x a n ı m. Fikir eləmə. Gələn ay səni öz fabrikimizdə işə də düzəldəcəyəm.

Z ə r n i ş a n. *(sevinir).* Nə yaxşı olardı.

**Cüməzadə Muxtarla həyətdə görünür.**

Z ə r n i ş a n. Odur, özü də gəldi.

M u x t a r. Hə... Cəbi qağa, qoy onu da deyim, ürəyimdə qalmasın. O hündür Ələsgər var a... Vay!.. Vay!.. Vay!.. Həmşəxanımdan kəsir belə olmayan kimi. Səhərdən axşamasan xəlvətdə pıç-pıç, pıç – pıç... Srağagün bu gözlərimlə gördüm: bir dənə göy “Zaporojes” içində hündür Ələsgər, yanında da Həmşəxanım. Yel kimi ötüb keçdilər yanımdan, salam da vermədilər. Elə bil heç mən adam deyiləm.

Cü m ə z a d ə. Muxtar, gör sən necə əfəlsən ki, yalan danışmağı da bacarmırsan. Adə, hündür Ələsgərin maşını göydür, sarımtıl?

M u x t a r. Hə... Üstünə kölgə düşmüşdü, sonra bir az uzaqlaşdı, gördüm siz deyən rəngdədir. Bunlar belədir də... toxuculuq fabrikini döndəriblər məhəbbət fabrikinə. Hərə birinə aşiq olub.

H ə m ş ə x a n ı m. *(eyvandan).* Ay səni elektrik vursun, Muxtar!

Cü m ə z a d ə. Gözlərini bağlayıblar, ürəyindən qıfıl asıblar? Sən də tut, birini sev.

M u x t a r. Qızlar mənə yaxın düşmürlər. Deyirlər sən Cəbi Cüməzadənin quyruğusan.

Cü m ə z a d ə. Yəni mənim quyruğum Ələsgərcən də olmadı? Yaxşı, yeri get, daha həyətə girmə, Zərnişan görsə, yenə abrını ətəyinə bükəcək.

M u x t a r. Vay!.. Vay!.. Vay!.. Mən külbaş kimə yaxşılıq elədim, əvəzində yamanlıq gördüm.

**Gedir. C ü m ə z a d ə evə keçir. Z ə r n i ş a n pərdənin arxasında gizlənir. Cüməzadə eyvanda Həmşəxanımı görcək qorxuya düşür.**

Cü m ə z a d ə. Həmşəxanım?

H ə m ş ə x a n ı m. *(özünü bilməməzliyə qoyur*). Ay əleykəssalam

Cü m ə z a d ə. Sən burda neyləyirsən?

H ə m ş ə x a n ı m. Zərnişanla söhbətim var.

Cü m ə z a d ə. Nə söhbət?

H ə m ş ə x a n ı m. Özümüz bilərik. Arvadların işinə niyə qarışırsan?

Cü m ə z a d ə. Həmşəxanım, ağzının qaytanı yoxdur?! Bəs dünən o məsələyə əncam çəkmədik? Şərtimiz necə oldu?

H ə m ş ə x a n ı m. Şərti sizlər pozursunuz. O tərəf farağat oturmur. Dünən yenə neçə dəfə zəng çalıb sizi xəbər alıb. *(Bənövşəni təqlid edir.)* “Cəbi Cüməzadə ordadır? Hara gedib, haçan gələcək?”

Cü m ə z a d ə. Zərnişana bir söz deməmisən?

H ə m ş ə x a n ı m. Deməmişəm, indi deyəcəm.

**Zərnişan arxadan səbir gətirir.**

C ü m ə z a d ə. *(Həmşəxanıma).* Sağlam ol. Yaxşı mən indi neyləməliyəm?

H ə m ş ə x a n ı m. Götürün dəstəyi, Bənövşənin nömrəsini yığın, mən nə desəm, siz də ona deyin... Yoxsa...

C ü m ə z a d ə. Yoxsa nə?

H ə m ş ə x a n ı m. Yoxsa vallah, açaram sandığı, tökərəm bir-bir pambığı mən Həmşəxanım, bax, bu canım, and - imanım, yox yalanım, burda bir əngəl, elə cəncəl, elə bir hay, elə bir vay salaram, cümlə qonum – qonşu axar, hamsı baxar heyrətinən, qeybətinən, qəşş edərəm ləzzətinən, onda mənə yalvaracaqsız, eləmi?

Cü m ə z a d ə. Bəs o gün sən mənə söz vermədin, arvad, evi bərbad, adı bədzad, niyə tezliklə unutdun, məni atdın, pulu tutdun, heç utanmırsan o cür bəd əməlindən, o dilindən, niyə qaçdın ki, sözündən, təzə bir hoqqa çıxardırsan özündən, beləmi?

H ə m ş ə x a n ı m. Siz də fabrikdə çox sözlər verib dalından qaçmısınız.

Cü m ə z a d ə. Bəlaya düşmədik, orta hesabla! Həmşəxanım, unutma ki, hal – hazırda mən fabrikin direktor əvəzi, sənsə süpürgəçisən! Nə haqla mənimlə bu dildə danışırsan?!

H ə m ş ə x a n ı m. *(çağırır),* Zərnişan... *(Zərnişan hay verir.)* Bura gəl, sözüm var.

**Zərnişanın gəldiyini görən Cüməzadə him-cimlə Həmşəxanıma susmağı işarə edir.**

Z ə r n i ş a n. A... Cəbi, sən də gəlmisən? Buyur, Həmşəxanım bacı, nə deyirdin?

H ə m ş ə x a n ı m. *(sözünü dəyişir).* Zəhmət olmasa mənə bir stəkan çay süz.

Z ə r n i ş a n. Bu dəqiqə. *(Gedib yenə pərdənin dalında dayanır.)*

Cü m ə z a d ə. *(arxadan ona eşitdirir).* Ay qız, mürəbbə də gətir, Həmşəxanım üçün. *(Həmşəxanıma.)* Yaxşı, elə bil zəng vurdum, axı mən ona nə deyim?

H ə m ş ə x a n ı m. Siz zəng vurun, mən sufliyorluq eləyəcəyəm.

Cü m ə z a d ə. *(çarəsiz zəng çalır).* Alo? Alo? Kimdir? Sənsən? Hə. Mənəm. Əşi, Cəbidir də!.. *(Həmşəxanım qalxıb qulaq asır. Cüməzadə dəstəyi onun qulağına söykəyir.)* Eşitdin? Arxayın oldun?

H ə m ş ə x a n ı m. Hə, indi ona  deyin, mənim göyərçinim, sən bu gündən Cəbi Cüməzadə adda adam tanımırsan.

Cü m ə z a d ə. *(dəstəyə).* Bu gündən Cəbi Cüməzadə adda adam... *(Dili gəlmir.)* tanımırsan.

H ə m ş ə x a n ı m. Mənim arvadım var, yekə oğlum var.

Cü m ə z a d ə. Mənim arvadım var, yekə oğlum var. *(Acıqlanır.)* Ay qız, neyləyim bunu əvvəldən də bilirdin!

H ə m ş ə x a n ı m. Deyin, ayıb olsun səninçün!

Cü m ə z a d ə. Ayıb olsun səninçün! Səninlə deyiləm, evdəkilərnənəm. *(Həmşəxanım gözlərini ağardır.)* Hə lap elə səninləyəm! *(Qızışır.)* Xeyr, sərxoş – zad deyiləm. Ağlım da başımdadır. Qurtardıq səninlə, orta hesabla! *(Dəstəyi qoyub tərini silir.)* Dincəldin? Qarnının ağrısı kəsdi?

**Zərnişan çay, mürəbbə gətirir.**

Z ə r n i ş a n. Cəbi, sənin üçün də çay süzüm?

Cü m ə z a d ə. Mənə çay yox, sərin su gətir!

**Küçədən Ələsgərin maşınının siqnalı eşidilir.**

H ə m ş ə x a n ı m. Gəldi. Mən daha gedim.

**Zərnişanla evə keçirlər. Ə l ə s g ə r həyətə gəlir.**

Ə l ə s g ə r. *(aynabəndə tərəf baxır).* Kimi görməmişəmsə, salaməleyküm.

Cü m ə z a d ə. *(həyətə boylanır),* Ələsgər? Sən buralarda nə gəzirsən?

Ə l ə s g ə r. Mənim həyətim sizin üçün bulvardır? Görüşməyə ayrı yer tapmadız?! Sən öləsən, bunlar məni dəli eliyəcəklər, orta hesabla.

**Gedir. T ə s a d ü f fitlə marş çala-çala həyətə girir.**

Ə l ə s g ə r. Bura bax, qurtardın?

T ə s a d ü f. Bəli, məni təbrik edə bilərsən.

Ə l ə s g ə r. Əlində-ovcunda qalsın. Adını nə qoyacaqsan?

T ə s a d ü f. Onu hələ fikirləşməmişəm. Ancaq altda bir valideyn kimi mənim imzam durur.T... nöqtə Hünərli.

Ə l ə s g ə r. İmzanı dəyiş.

T ə s a d ü f. Necə? Dəyişim? Bəs nə yazım?

Ə l ə s g ə r. Yaz. T... nöqtə Zirrama!

**Gedir. Zərnişan Həmşəxanımı ötürəndə başına yaş yaylıq salmış Cüməzadə həyətdə görünür.**

H ə m ş ə x a n ı m. (*Cüməzadəyə).* Yadımdan çıxdı, sizdən soruşum, çaynikin qapağını görməmisiz?

Cü m ə z a d ə. *(acıqlı).* Mən başımı itirmişəm, bu çaynukin qapağını axtarır!

**Həmşəxanımla Zərnişan küçəyə çıxır. Təsadüf atasına yaxınlaşır.**

T ə s a d ü f. Paxan, onu bilirsənmi məndə qəribə müşahidə qabiliyyəti var.

Cü m ə z a d ə. Nə demək istəyirsən?

T ə s a d ü f. Gözlərindən aydın oxuyuram, bu dəqiqə sənin kefin kök, damağın çağdır.

Cü m ə z a d ə. *(kənara).* Belə qabiliyyətin başına dəysin. *(Oğluna.)* Düz tapmısan, bala.

T ə s a d ü f. Onunçün də mən bu xoş əhval-ruhiyyədən istifadə edərək sənə bir sirrimi açmaq istəyirəm.

**Zərnişan qayıdır.**

T ə s a d ü f. *(oynayır).* Dünən gördüm bir madonna,
Məni yoldan saxladı o,
Elə bil ki, snayperdi,
Düz sinəmdən oxladı o.

Z ə r n i ş a n. Eşqə düşübdür oğlumuz,
Gözün aydın olsun Cəbi,
Gərək ona elçi gedək
Açaq deyək biz mətləbi.

C ü m ə z a d ə. *(zarıyır).* Sevibdirsə çox mübarək
Haçanacan qalsın o tək?!

T ə s a d ü f. Ey, ça-ça-ça! Çox mübarək!
Daha bəsdir mən qaldım tək!

**Küçədən Ələsgərin maşınının siqnalı eşidilir.**

*P ə r d ə*

**İNTERMEDİYA**

Küçədir. Cü m ə z a d ə   M u x t a r l a keçir.

M u x t a r. Hə... Cəbu qağa, qoy onu da deyim, ürəyimdə qalmasın. O Azər var a... Vay!.. Vay!.. Vay!.. Yaxşı işləməyinə baxmayın, o da bir nömrədir. Özünü gözə soxur. Elə direktor burda olanda da belə idi.

C ü m ə z a d ə. *(dayanır).* Ay Muxtar, Sən bu fabrikdəkilərin hamısını bir-bir pisləyirsən. Axı, orta hesabla özün necə adamsan, ey?..

M u x t a r. *(mat qalır).* Bu nə sözdür, Cəbi qağa? Elə bilirəm siz məni ağzımöhkəm, mərd bir eloğlu kimi yaxşı tanıyırsız!

**F i r u z gəlir.**

F i r u z. Salam, yoldaş Cüməzadə, Ayın otuzunda axşam saat 8- də sizi toya dəvət edirəm. Əlbəttə öz xanımınızla.

M u x t a r. “Öz xanımınızla” deyəndə özgəninki ilə gəlməyəcək ki.

C ü m ə z a d ə. *(Muxtarı dala itələyir).* Təbriklər, təbriklər. Gəlin də yəqin Şəfiqədir.

F i r u z. Xeyr, bu başqasıdır.

C ü m ə z a d ə. *(tutulur).* Firuz, xoşum gəlmir sənin bəzi-bəzi hərəkətlərindən!

F i r u z. Niyə ki?

C ü m ə z a d ə. Ə, ayıbdır! O qızı yerindən elədin, indi də başqası ilə evlənirsən?

M u x t a r. Mən də bilmirəm!

F i r u z. *(gülür).* Məni başa düşmədiniz, yoldaş Cüməzadə. Evlənən bizim fabrikdə ikinci sexdən usta köməkçisi Azərdir. Toy onunkudur. Mənsə Yerli komitənin sədri, həm də bir dostu kimi bu işə vəkil edilmişəm.

C ü m ə z a d ə. Hə... belə de. Azərin əsl evlənən vaxtıdır. Özü də cavan. Komsomol...

F i r u z. Elə sevdiyi qız da komsomolçudur. Gənclərin toyunu fabrikimizin yeməkxanasında eləmək istəyirik. Hətta onu da nəzərdə tutmuşuq ki, gəlini direktorun maşınında gətirək.

C ü m ə z a d ə. Demək o gecə qalıram mən piyada? Hə, nə olar!..

M u  x t a r. Cəbi qağa, bəs nəyə minib gələcəksiniz?

C ü m ə z a d ə. Özümə! *(Gedir, yenə qayıdır).* Firuz, sabah bu barədə bir də götür-qoy edərik.

F i r u z. Yaxşı. *(Gedir.)*

M u x t a r. Gördüz, Cəbi qağa? Vay!.. Vay!.. Vay!.. Məni toya çağırmadı, a!..

C ü m ə z a d ə. Sən o məclisdə lap yuxarı başda əyləşəcəksən.

**Gedirlər. A z ə r l ə D i l ə z b ə r gəlir.**

A z ə r. Elə şey soruşursan ki, adam cavab verməyə çətinlik çəkir. “Məni sevdiyini necə izah edirsən?..” Məsəl üçün... Mən bir dəfə sexə girəndə neçə yüz qızın içərisində səni ayrı cür görürəm. Hamıdan qəşəng, hamıdan mehriban... Uzaqdan gözlərinin ifadəsini sezməsəm də, hərəkətlərindən ürəyini duyuram. Bilirəm, kefin kökdür, ya qanın qaradır. Dəzgahların gurultusundan heç nə eşidilməsə də dodaqların tərpənəndə qəhqəhən qulaqlarımda səslənir. Hətta elə bil ılıq, ətirli nəfəsini hiss edirəm. Barmaqların çərçivələrə çəkilmiş min-min saplar arasında gəzəndə arfa çalan bir gözəli xatırladırsan...

D i l ə z b ə r. Bəs başqa qızları necə görürsən?

A z ə r. Hamısını bir gözdə.

T ə s a d ü f. *(gəlir.)* Aha! Odur! Bəs yanındakı oğlan kimdir?

D i l ə z b ə r. Azər, sənə haqqında danışdığım formazon budur. Deyəsən yenə məni gözləyir.

A z ə r. Sən uzaqlaş. Mən ona bir-iki söz deyəcəm. *(Diləzbər gedəndə Təsadüf ona yaxınlaşmaq istəyir. Azər çığırır.)* Göyçək oğlan!

T ə s a d ü f. Mənimləsən?

A z ə r. Burda səndən savayı göyçək oğlan yoxdur ki?! O qıza nə vermisən, ala bilmirsən?

T ə s a d ü f. Ürəyimi.

A z ə r. Nahaq yerə. O ürək verməli adam deyil.

T ə s a d ü f. Sən onun vəkilisən?

A z ə r. Xeyr. Elə bir yerdə işləyirik. Düzünə qalsa mənim ondan zəhləm gedir.

T ə s a d ü f. Bəs qoluna niyə girmişdin?

A z ə r. Bilirsən, o çox sırtıq qızdır. Məni məcbur elədi. Eh... Sən ona hələ yaxşı vaxtında rast gəlmisən. Özünü gündə bir rəngə salır. Bax... yubka geyir burdan. Papiros çəkir. Konyak içir...

T ə s a d ü f. Burda təəccüblü bir şey yoxdur, əsl müasir qızdır.

A z ə r. Bir bibisi də var, əzrail ondan xoşxasiyyətdir.

T ə s a d ü f. Bibisini almayacağam ki

A z ə r. Özün bil. Məndən deməkdir. *(Diləzbərin dalınca qaçır.)*

T ə s a d ü f. Aha.... Bunun başqa fikri var... Yox, onu görməyəcəksən! Bu acığa Diləzbərə tezliklə elçi göndərməliyəm.

**Fitlə marş çala-çala gedir.**

## ÜÇÜNCÜ ŞƏKİL

Birinci şəkildəki yer. H ə m ş ə x a n ı m oxuya-oxuya otağı yığışdırır.

H ə m ş ə x a n ı m. Təzədən sevilmək düşüb xətrimə,
Kaş bir qız olaydım on beş yaşında.
Yenə kəndimizin cavanlarıyla
Gəzib görüşəydim bulaq başında.
Biri meyl etmişdi mənə keçən il,
Ölürdü dərdimdən, ötürdü dil-dil.
Könlümə yatmadı, düzü elə bil
Biclik yazılmışdı o göz – qaşında.
Barı qalan ömrüm keçməsin hədər,
Darıxıram evdə otursam əgər,
Yaxşı ki, ara-bir hündür Ələsgər
Özüylə gəzdirir məni maşında.

Eh... Bu saqqalı ağarmış Ələsgərin də sirrindən baş açmaq olmur. Oturur-durur, sözü-söhbəti nədir: korbirator elə gəldi, radiator belə getdi. Daha bir demir ki, razılığını alıb mindirmişəm Həmşəxanımı "Zaporojes"ə, aparın plyajda çimdirim gətirim. Srağagün yarım saat benzokalonkada növbəyə dayanmışıq. Mən də fikirləşirəm ki, yəqin səfərimiz dənizədir. Benzin götürdü, sürdü taksimotornıya. Təkərim boşalıb, dedi, özüm nasoslayanda belim sərpir. Orda bir adam tapaq, verim doldursun. Eh! Cin vurmadı başıma? Saxlatdırdım maşını telefonnu küçənin tən ortasında, düşdüm aşağı. Dedim, o nasosu bəri ver! Aldım, kaçayla ki, kaçaylayasan. Bir də başımı qaldıranda gördüm, qaş qaralıb. Əyləşdik maşına, döndərdi dala. Soruşdum, Ələsgər belə niyə? Mənə nə cavab versə yaxşıdır: çeşməyim evdə qalıb, axşamlar gözüm yaxşı seçmir. Çıxarıb öz eynəyimi taxdım gözünə. Dedim razmerimiz elə bir olar, sür plyaja! Yenə bir bəhanə tapdı: Axşamın xeyrindən, sabahın şəri yaxşıdır... Yandım, töküldüm...

**D i l ə z b ə r gəlir.**

D i l ə z b ə r. Bibi, Azər hardadır?

H ə m ş ə x a n ı m. Ay qız, Diləzbər, çaynikin qapağını görməmisən?

D i l ə z b ə r. Yox. Mənə Azər təcili lazımdır. Dəzgahlarımdan biri xarab olub, onu tez düzəltməlidir. *(Azər Şəfiqə ilə gəlir.)* Azər, bayaqdan səni axtarıram.

Ş ə f i q ə. Diəzbər, xahiş edirəm Azəri söhbətə tutma, əlində vacib işi var.

A z ə r. Şəfiqənin briqadasında dəzgahlar çərçivəsi partlayıb. Diləzbər, onunla məşğulam. Məni axtarmaqda xeyir ola?

D i l ə z b ə r. Mənim də bir dəzgahımın barabanı fırlanmır. Sapı yuxarı çəkmir.

A z ə r. *(düşünür).* Şəfiqə, gözlə, bu dəqiqə baxım, gəlirəm. *(Diləzbərlə gedir.)*

Ş ə f i q ə. *(hirslənir).* Gördün?! Daha buna nə sözün?! Işini yarımçıq qoyub getdi.

H ə m ş ə x a n ı m. Qanını qaraltma, indi gələr. Hə, səndən soruşmamışam. Çaynikin qapağını görməmisən?

Ş ə f i q ə. Yox, necə?

H ə m ş ə x a n ı m. Ay balam, neçə gündür ilim-ilm itib bu çaynikin qapağı. Bir gördüm deyən yoxdur.

**Ə l ə s g ə r içi parça dolu əl arabası ilə gəlir.**

Ə l ə s g ə r. Kim sevib bilir əlbət,
Ayrı şeydir məhəbbət.
Adamı sərbəst edir.
Ağlı başından gedir.
Kimi görməmişəm salaməleyküm.

H ə m ş ə x a n ı m. Ay əleykəssalam. Qoluna qüvvət.

Ş ə f i q ə. Ələsgər əmi... küçəmizdən keçəndə pəncərədən yaxşıca gördüm səni. Maşında gedirdin, yanında da bir arvad. Ancaq tanımadım. Nömrəsi də 33-39.

Ə l ə s g ə r. Sən maşının nömrəsini deyirsən, arvadın?

Ş ə f i q ə. Maşının.

Ə l ə s g ə r. Hə, o maşın mənimdir.

Ş ə f i q ə. Soruşmaq ayıb olmasın, bəs arvad kimdi?

Ə l ə s g ə r. Çeşməksizdim, qızım, yaxşı fikir verməmişəm.

H ə m ş ə x a n ı m. *(eyhamla).* Həri?,, Belə işlərin də var?

Ə l ə s g ə r. *(oxuya-oxuya uzaqlaşır).*
Kim sevib bilir əlbət,
Ayrı şeydir məhəbbət.

**A z ə r və D i l ə z b ə r gəlir**

Ş ə f i q ə. Gedək. Azər lap çox ləngidi.

A z ə r. Şəfiqə sənin dəzgahını günün ikinci yarısında düzəltməyə başlayacağam.

Ş ə f i q ə. *(heyrətlə).* Niyə?

A z ə r. Ona görə ki, vəziyyət dəyişdi. Əvvəlcə Diləzbərin dəzgahını təmir etməliyəm.

Ş ə f i q ə. Necə? Necə? Diləzbərin?

**C ü m ə z a d ə ilə F i r u z gəlir.**

C ü m ə z a d ə. Nə mübahisədir?

Ş ə f i q ə. Yoldaş Cüməzadə, mən elə bu dəqiqə sizin yanınıza şikayətə gələcəkdim

A z ə r. Məsələ belədir...

C ü m ə z a d ə. Bir-bir danışın. Bura fabrikdir, ya zənənə hamamıdır, orta hesabla?!

H ə m ş ə x a n ı m. Hamamdır. Sexlərdə ventelyatorlardan çoxu işləmir. İstidən nəfəs almaq olmur.

F i r u z. Darıxmayın. Iki günədək onların hamısı qaydaya düşəcək. Kabelləri dəyişəcəyik. Köhləlmiş ventelyatorları təzələri ilə əvəz edəcəyik.

H ə m ş ə x a n ı m. Hamam deyəndə...

C ü m ə z a d ə. Arvad qurtar! Hamamdan çıxdıq.

H ə m ş ə x a n ı m. Həmişə təmizlikdə. *(Ələsgərin onu çağırdığını görüb gedir.)*

F i r u z. Mətləbə keçin.

Ş ə f i q ə. Azər mənim dəzgahımda işi yarımçıq qoyub Diləzbərin dəzgahını düzəldir. Belə də haqsızlıq olar?!

F i r u z. Azər düzgün hərəkət edir.

D i l ə z b ə r. Elədir.

Ş ə f i q ə. Axı, niyə? Əvvəl dayanan mənim dəzgahımdır. Birinci o işə düşməlidir.

A z ə r. Xeyr.

C ü m ə z a d ə. Niyə?

F i r u z. Çünki barabanı düzəltmək üç saatlıq işdir. Partlayan çərçivənin təmirinə isə iki gün vaxt lazımdır.

Ş ə f i q ə. Yoldaş Firuz, iki gün adama şöhrət də gətirər, töhmət də. Diləzbər iyirmi beş dəzgahla işləyir. Sizcə mən iyirmi dörddən iyirmi üçə enməliyəm?! Bu açıq-aydın yarışda uduzmaq deməkdir.

D i l ə z b ə r. Şəfiqə, Firuz da, Azər də ümumi işin xeyrinə düşünürlər.

Ş ə f i q ə. Onu da bil ki, iki gündə mən o dəzgahda yetmiş metr parça toxumalıyam.

D i l ə z b ə r. Razıyam. Azər, Şəfiqəylə get. Qoy dayanan mənim dəzgahım olsun.

F i r u z. Azər, sənə nə demişdimsə ona qulaq as.

**Azər Diləzbərlə getmək istəyir.**

C ü m ə z a d ə. Dayan! Birinci xarab olan dəzgah Şəfiqəninki deyilmi?

Ş ə f i q ə. Bəli.

C ü m ə z a d ə. *(Azərə).* Əvvəlcə onu işə salmalısan! Qurtardıq!

**Dağılışırlar. Cüməzadə kabinetə keçir. Muxtar gəlir.**

M u x t a r. Hər vaxtınız xeyir, Cəbi qağa. Keyfiniz, əhvalınız? Evdəkilər necədir? Zərnişan bacı, qağam balası... Maşallah, özünüz qovraqsınız, bura gələni əməli-başlı kökəlmisiniz...

C ü m ə z a d ə. Əksinə, xeyli arıqlamışam.

M u x t a r. Hə? Elədir. Bu tərəfdən diqqətlə baxanda hiss olunur. Vay!.. Vay!.. Vay!.. Gör nə yaman sınıxmısınız. Əşi, neyləyəsiz, iş çoxdur da. Öldürürsüz üzünüzü səhərdən axşamacan. Camaatımız da belə... Biri elə Firuz. Qoy onu da deyim ürəyimdə qalmasın. Firuzu tanımırsız? Vay!.. Vay!.. Vay!.. Mərdümazar... fırıldaq...

C ü m ə z a d ə. O Şəfiqə necə adamdı ey?

M u x t a r. Şəfiqə? Necə olacaq. Yelbeyin, gicbəsər... Firuzun tayı.

C ü m ə z a d ə. Mənsə onu ağıllı, təvəzökar bir qız kimi tanıyıram.

M u x t a r. *(sözünü dəyişir).* Siz Şəfiqəni soruşursunuz? Ondan yodur ki!.. Şəfiqədən fabrikdə bir dənədir. Amma Firuz - Vay!.. Vay!.. Vay!.. Tənbəl! *(Firuz içəri girir.)* İşləyən deyil. Inandırıram sizi, o olmasa, planda xeyli irəli düşərik. Hə... *(Firuzu görür.)* Odur ey... Özü də gəldi. Durum deyim pis işçidir. Yox... Adamın vicdanı var... Inandırıram sizi, bu Firuz olmasa, batarıq. Yazıq tək neyləsin?

F i r u z. Muxtar, danışanda sözlərinə diqqət yetir. Mən nə yazığam, nə də təkəm!

M u x t a r. Onu bilirəm ey!.. Atan da var, anan da var... Mən fabrikdə deyirəm.

F i r u z. Fabrikdə mən böyük bir kollektivə arxalanıram. Sənsə bir nəfərə. Təklik və yazıqlıq odur!

M u x t a r. Yoldaş Cüməzadə, bu kağıza qol çəkin. Ikinci sexin elektrik xətlərini dəyişmək üçün 1500 metr kabel lazımdır. *(Cüməzadə qol çəkir.)* Sağ ol, Firuz qağa, Allah səni bizim başımızın üstündən əksik elıməsin. *(Gedir.)*

C ü m ə z a d ə. Dünən bir toy söhbəti saldın, o, necə olacaq?

F i r u z. Demək, arvadlı-kişili toplaşacağıq məclisə. Söz qoymuşuq ki, hamı öz fabrikimizin buraxdığı parçalardan paltar tikdirib geyinsin.

C ü m ə z a d ə. Mən də?

F i r u z. Siz də. Televiziyadan operatorlar gələcək. Toyu bütün respublikaya göstərəcəklər. Yarışdığımız fabrikdən də qonaqlar çağırmışıq. Yeyib- içəcəyik, çalıb –oynayacayıq. Iki kəlmə xoş sözlə bəylə gəlini tapşıracağıq bir – birinə, dağılaşağıq. Vəssalam.

C ü m ə z a d ə. Elə yaramaz. Sən deyən partizanlıqdır, orta hesabla, hər şey qabaqcadan ölçülüb-biçilməlidir. Ərə gedən qız hansı sexdəndir?

F i r u z. İkinci sexdən.

C ü m ə z a d ə. Bu da məni açmadı.

F i r u z. Axı siz belə xeyir işə niyə pəl vurursunuz, yoldaş Cüməzadə?

C ü m ə z a d ə. Ikinci sexdə plan onsuzda ləngiyir, məsələ burasındadır ki, toydan sonra təzə gəlin üç gün işə çıxmayacaq. Bu da bizim "xeyrimiz".

F i r u z. Bəs necə olsun?

C ü m ə z a d ə. *(fikirləşir)*. Bəlkə... Azəri dilə tutasan üçüncü sexdən evlənsin?

F i r u z. *(istehza ilə)*. Ağıllı məsləhətdir. Ancaq ZAQS-da kəbinlərini kəsdiriblər.

C ü m ə z a d ə. Görürsən nə özbaşnalıqdır? Hanı, siyahınız-zadınız varmı, görək toya kimləri çağırırsınız?! Barı qonaqların yanında biabır olmayaq!

F i r u z. *(cibindən kağız çıxarır)*. Buyurun. Bu oğlan evinin, bu da qız evinin adamlarıdır.

C ü m ə z a d ə. *(siyahını gözdən keçirir)*. Diləzbəri toya çağırmayın!

F i r u z. Siz nə danışırsınız? Onsuz da toy olar?

C ü m ə z a d ə. Vacib deyil! Xoşum gəlmir o qızdan Adama salam da vermir. Məni görəndə üzünü yana tutur.

F i r u z. *(gülür)*. O gərək lap başda otursun.

C ü m ə z a d ə. Niyə? Göydən zənbillə düşüb?!

F i r u z. Axı gəlin Diləzbərdir, yoldaş Cüməzadə. Elə onunçun da sizdən utanır...

C ü m ə z a d ə. Paho... Ərə gedən odur?

F i r u z. Bəs mənəm?

C ü m ə z a d ə. Bu toydan gözüm heç su içmir. Mən indi sexlərə baş çəkməliyəm. Vaxt tapıb bu məsələni bir də götür-qoy edərik.

**F i r u z gedir. Katibə otağında telefon zəng çalır. Həmşəxanım gəlib dəstəyi qaldırır.**

H ə m ş ə x a n ı m. Alo! Nə? Zərnişan? Xoş gördük səni. Hə.. hə... hə... Başa düşdüm. Tufli. Əvvəl bir özü ilə danış, atkaz eləsə, mənim boynuma. Bu dəqiqə *(Kabinetə keçir.)* Yoldaş Cüməzadə, sizi istəyirlər.

C ü m ə z a d ə. Kimdir?

H ə m ş ə x a n ı m. Bir zənən xeylağıdır. *(Çıxır.)*

C ü m ə z a d ə. Bu arvad hər kabinetə girəndə elə bil əzrailimi görürəm. Bircə katibə tez qayıdıb gəlsəydi... *(Dəstəyi götürür.)* Alo! Eşidirəm. Zərnişan? Nə var? Nə olsun qabaqda bayram gəlir! Sənə tufli lazımdır? Yaxşı, yaxşı, köhnələrlə birtəhər keçinərsən. *(Dəstəyi qoyur. Həmşəxanım içəri girir.)* Çox şübhə ilə baxırsan. Ürəyinə ayrı şey gəlməsin, danışan öz arvadımdı.

H ə m ş ə x a n ı m. Mən bir söz demirəm ki. *(Əlindəki kağızları stolun üstünə qoyur.)*

C ü m ə z a d ə. Bunlar nədir?

H ə m ş ə x a n ı m. Ərizədir.

C ü m ə z a d ə. İşdən çıxırsan?

H ə m ş ə x a n ı m. Xeyr. Nahaq yerə sevinməyin. Daimi katibə vəzifəsinə keçmək istəyirəm. On beş il bu fabriki silib-süpürdüm, bəsdir.

C ü m ə z a d ə. Bəs bilmirsən katibə dekretə gedib?

H ə m ş ə x a n ı m. Gözünüz aydın. Srağagün katibə azad oldu.

C ü m ə z a d ə. Qız doğdu, oğlan?

H ə m ş ə x a n ı m. Üçünü birdən! Bu da onun ərizəsidir. Yazır, bu körpələrlə mən daha işləyə bilmərəm. Dövlət vəsait kəsib...

C ü m ə z a d ə. Sənin katıbəliyə savadın çatarmı?

H ə m ş ə x a n ı m. Buyurub imtahan edə bilərsiniz Azərbaycan dilindən, qrammatikadan, orfoqrafiyadan nə soruşsanız cavab verməyə hazıram.

C ü m ə z a d ə. Həmşəxanım, düzü belədir də...

H ə m ş ə x a n ı m. *(səsini qaldırır).* Bir kəlmə, götürəcəksiz, ya yox?

C ü m ə z a d ə. *(yumşalır).* Yaxşı, yaxşı, ay arvad, sakit ol. *(Ərizəyə qol çəkir.)* Get, əmrini belə yaz: Həmşəxanım filankəsova ayın birindən etibarən otuz günlük yoxlama müddəti ilə katibəliyə qəbul edilsin. *(Həmşəxanım çıxır.)* Ay sənin başınçün! O vaxta kimi yerinə adam götürüb səni süpürgəyə də həsrət qoyacağam, katibə də keçməyəcəksən.

**Həmşəxanim geri qayıdır.**

H ə m ş ə x a n ı m. Mənə nə yoxlama müddəti?! Ay yarımdır katibənin əvəzinə işləyirəm, bəs deyil? Yazacağam, Həmşəxanım katibəliyə götürülsün. Bu – bir. Sonra belə ayaqqabılarla sizin kabinetə girib - çıxmaq ayıbdir.

C ü m ə z a d ə. Sözün?

H ə m ş ə x a n ı m. Univermağa yaxşı sədəfi tuflilər gəlib. Özüdə havayı – qırx manat. Ondan almalıyam.

C ü m ə z a d ə. *(özündən çıxır).* Get nə istəyirsən al, gey, bəzən, ancaq məni rahat burax, Həmşəxanım! Mən müdiri əvəz edəndən bəri anadan əmdiyim süd burnumdan gəlib, orta hesabla. Pərvərdigara, sən bir dünyanın işinə tamaşa elə! Bu vaxtacan görmüşdük ki, müdir başqalarından rüşvət alar, ancaq bu xarabada süpürgəçi məndən istəyir.

H ə m ş ə x a n ı m. Bu rüşvət deyil.

C ü m ə z a d ə. Bəs nədir? Fitrədir?

H ə m ş ə x a n ı m. Aldı - verdidir.

C ü m ə z a d ə. Sən adını nə qoyursan qoy, mahiyyəti birdir. Eşitsələr atamızı yandırarlar.

H ə m ş ə x a n ı m. Sizi bilmirəm, mənə "çox sağ ol" deyərlər

**Şəfiqənin gəldiyini görən Həmşəxanım çıxır.**

Ş ə f i q ə. Yoldaş Cüməzadə!

C ü m ə z a d ə. Bəli, yenə nə var?

Ş ə f i q ə. *(həyacanla).* Azər Firuzun göstərişi ilə mənim dəzgahımı yox, Diləzbərin dəzgahını təmir edir. Buna nə ad vermək olar?

C ü m ə z a d ə. Özbaşnalıq, orta hesabla! Bu saat mən bütün acıqlarımı o Firuzdan çıxacağam.

**Gedirlər. Ələsgər əl arabası ilə gəlir.**

Ə l ə s g ə r. *(lağla),* "Qaranlıqda işıq və sükunət –
Qaranlıq könlüm,-
Işıq məhəbbətimdir..."

*(Gülür.)* Pah atonnan, belə dərrakə sahibi!

H ə m ş ə x a n ı m. O kimin şeiridir?

Ə l ə s g ə r. Eh! Tanımasan yaxşıdır.

H ə m ş ə x a n ı m. *(ona zəndlı baxır).* Ələsgər, sözlü adama oxşayırsan!

Ə l ə s g ə r. *(utana-utana).* Sabah günorta evində ol, sizə gələcəm. Sənə vacib, təxirəsalınmaz sözüm var.

H ə m ş ə x a n ı m. Bəlkə elə burda deyəsən?

Ə l ə s g ə r. Ayaqüstü söhbət deyil. *(Kənara.)* Daha neyləyim, özü-özümə elçi getməliyəm.

**Nahar zəngi çalınır. C ü m ə z a d ə, F i r u z, Ş ə f i q ə, A z ə r, D i l ə z b ə r və başqaları gəlirlər.**

C ü m ə z a d ə. *(Firuza).* Sən bu hərəkətinlə fabrikin işini dala atırsan. Həmşəxanım, yaz! Əmr nömrə filan. Özbaşnalıq üzündən dəzgahların saatlarla boş dayanmasına yol verdiyi üçün fabrikin texnoloqu Firuz Ağazadəyə şiddətli töhmət elan edilsin! *(Gedir.)*

Ş ə f i q ə. *(Firuza),* Düz ilqarın, sədaqətin hardadır?

Dostu, dedin, bərkdə - boşda sınarlar
Bəs bu gündə cəsarətin hardadır?
Dönüm çıxmaz öz əhdinə vəfadar.
Sən bəxtimdə günəş deyil, buluddun.
Bircə anda etibarı unutdun.
Söylə görüm bu nə işdir sən tutdun?
Mən bilmirəm dəyanətin hardadır!
Sən hamıdan məni yaxın sanırdın,
Gücə-gündüz düşünürdün, anırdın.
Guya ki eşq atəşindən yanırdın,
O müqəddəs məhəbbətin hardadır?

F i r u z. *(təəssüflə).* Işə can yandırmağım üçün bunlar hamısı mənim mükafatımdır?

Ş ə f i q ə. *(Azərlə Diləzbərə).* Mən bu gün dostumu, düşmənimi yaxşı tanıdım! Siz də az aşın duzu deyilsiniz*! (Acıqla gedir.)*

H ə m ş ə x a n ı m. Əgər katibə mənəmsə, o Firuzun adına töhmət yazılmayacaq!

F i r u z. Mənə görə qanınızı əsla qaraltmayın, qızlar. Fasiləyə çıxmısız, çalın,oynayın, şənlik edin.

*Pərdə.*

## ÜÇÜNCÜ PƏRDƏ

### DÖRDÜNCÜ ŞƏKİL

**Sol tərəfdə H ə m ş ə x a n ı m ı n eyvanı, sağ tərəfdə güllü-çiçəkli bağçadır. Şəfiqə skamyada oturub. Firuz ayaq üstədir.**

F i r u z. O qədər incəsən, zərifsən inan,
Ayırmaq olmayır çiçəkdən səni.
Qalmışam çoxdandır hüsnünə heyran,
Sevirəm sidq ilə ürəkdən səni.
Vurduğun tənəni mən unutmuşam,
Acı sözlərini bal tək udmuşam.
Daima qəlbimdə əziz tutmuşam,
Hər üzü rənadan, göyçəkdən səni.

Ş ə f i q ə. *(qalxır).* İnanmıram. Sən həqiqətən məni sevsəydin, o gün camaatın arasında pərt eləməzdin.

F i r u z. Şəfiqə, mənim yerimdə hansı mühəndis, hansı texnoloq olsaydı, ümumi işin xətrinə mütləq o cür hərəkət etməliydi.

Ş ə f i q ə. Bəs mənim xətrim?

F i r u z. Axı yüngül bir təmirə görə Diləzbərin dəzgahını iki gün dayandırmaq vicdansızlıqdır.

Ş ə f i q ə. Cüməzadə özü demədimi...

F i r u z. Başa düş, əzizim, Cüməzadə bu işdə naşıdır. Gördün ki, istehsalat müşavirəsində yerindən qalxan onu təqsirləndirdi. Hətta sənin briqadandakı qızlar da mənə tərəfdar çıxdılar.

Mübahisə edə-edə gedirlər. Gözünə düşməyən eynək taxmış Cüməzadə ilə Təsadüf gəlir.

T ə s a d ü f. *(göstərir).* Diləz bu evdə olur.

**Cüməzadə yaxşı görmədiyindən hirslənib, eynəyini çıxarır.**

C ü m ə z a d ə. Anan da təzə hoqqa çıxardır mənimçün. Gözümə düşməyən eynək taxdırır. Nə var, nə var küçədə ona buna baxmayım. Hə... demək bu evdir?! Yaxşı, sən get gör ananla Muxtar niyə yubandı. *(Təsadüf fitlə marş çala-çala gedir.)* Zərnişanın da üzük almağı indiyə qaldı. *(Eynəyi taxıb ətrafa nəzər salır.)* Dünranı ala-bula görürəm. *(Həmşəxanım əlində bazar çantası qarşıdan keçir.)* Əcəb şeydir. *(Yan –yörəsinə boylanıb ona söz atır.)* Bu gedən nə qəşəng xanımdır... Yerişi də yastı-yastı...

H ə m ş ə x a n ı m. *(ona fikir vermədən).* Zəhrimar!

C ü m ə z a d ə. *(eynəyini çıxarıb ardınca baxır).* Adə bu ki, yaşlı arvaddır. Bir suyu da elə bizim Həmşəxanıma çəkir. Allah onun cəzasını versin. Məni qoz qabığına soxmayıb?! Bugün ki, səhərdən sifətini görməmişəm, kefim orta hesabla

kökdür. *(Eynəyi taxır.)* Eh!.. Qocalıq!.. Yadımdadir, düz iyirmi iki il əvvəl anamı da Zərnişan üçün elçiliyə belə göndərmişdim. Kaş heç göndərməyəydim. Ölülər elə bilir ki, dirilər halva yeyir. Subaylar evlənməyə can atır, sonra çoxu mənim kimi peşman olur.

**Firuz qayıdır.**

F i r u z. Salam. *(Cüməzadə başını qaldırır.)* Eşitdim istehsalat müşavirəsində çıxışıma görə məndən incimisiz?

C ü m ə z a d ə. Möhkəm! Sən məni ayaqlayıb üstümdən keçdin.

F i r u z. Yanılırsınız... Ancaq bura o söhbətin yeri deyil.

C ü m ə z a d ə. Bilmirəm, konkret mənim günahım nədədir?

F i r u z. Günahınız çoxdur, yoldaş Cüməzadə. Böyük bir fabrikin rəhbərliyini müvəqqəti sizə tapşırıblar. Bu o deməkdir ki, dövlət öz milyonlarını sizə etibar eliyib. Onu göz bəbəyi kimi qorumalısınız. Sizsə bütün məsuliyyəti üstünüzdən ataraq müdir gəlincəyədək ancaq bir təhər başınızı girləməyi düşünürsünüz. Ona görə ki, bu işdə müvəqqətisiniz. Kollektivin əlbirliyi olmasa, məhsul istehsalı günü-gündən azalardı. Lakin əsl vicdanlı vətəndaş bir dəqiqəlik etibara da namusla yanaşmalıdır!

C ü m ə z a d ə. Sözündən belə çıxır ki, orta hesabla, mənim vicdanım yoxdur?

F i r u z. Bu varlığı, yoxluğu bildirmək sizin işinizdən asılıdır. *(Getmək istəyir.)*

C ü m ə z a d ə. Dayan. *( Firuz ayaq saxlayır.)* Əyləş. *(Firuz oturmur. Cüməzadə söhbəti dəyişir.)* Doğrudanmı, toy üçün üç – dörd yeşik içki almısınız, çox olmazmı?

F i r u z. Sizə düzgün məlumat verməyiblər. Yarısı “Badamlı”yla limonaddır.

C ü m ə z a d ə. Bilirsən neyləmək lazımdır?

F i r u z. Xeyr.

C ü m ə z a d ə. O araqların, konyakların hamısına yarıbayarı su qatmaq! Qoy kim nə qədər içərsə içsin, heç kəs keflənməz.

F i r u z. Yaxşı deyil, yoldaş Cüməzadə.

C ü m ə z a d ə. Ə, niyə? Rəhmətliyin oğlu, restoranda qatmırlar? Bizim fabrikin yeməkxanası onlardan əskikdir?

F i r u z. *(istehza ilə.)* istəyirsiz lap çaxırlara da su qataq.

C ü m ə z a d ə. Pis olmaz. Beş-on butulka təmizindən özümüzlə qonşu fabrikdən gələcək qonaqlar üçün saxlayarsız, kifayətdir.

F i r u z. Baş üstə, onu da edərik.

C ü m ə z a d ə. Demək, bu məsələni də belə razılaşdıq. Görürsən, istirahət günü də işləyirəm. Indi qaldı toyun musiqisi, oxumağı, oynamağı.

F i r u z. Onların hamısı fabrikimizin özfəaliyyət dərnəklərindən olacaq.

C ü m ə z a d ə. Nağaraçı yenə o sarıyanız oğlandır?

F i r u z. Bəli, Əbülfəzdir.

C ü m ə z a d ə. Necə işləyir?

F i r u z.  Belə də... Babətdir. Ancaq çox yaxşı nağara vurur.

C ü m ə z a d ə. Dəyiş onu. Qonaqların yanında başımızı yerə soxmasın. Qoy bir başqası pis çalsın, ancaq qabaqcıl olsun. Musiqi dərnəyinin rəhbərinə tapşır, Muxtara nağara vurmaq öyrətsin.

F i r u z.  (*düşüncəli)*. Ayrı sözünüz yoxdursa, mən mürəxxəs olum.

C ü m ə z a d ə. Ol. Sonra bu məsələni ikilikdə bir də götür-qoy edərik.

**F i r u z gedir. Ə l ə s g ə r  geyimli-kecimli gəlir.**

C ü m ə z a d ə. *(eynək arxasından zəndlə baxır).* O... Ələsgər.  Ablojkanı dəyişmisən. Az qala tanımayacaqdım səni.

Ə l ə s g ə r. Sizdə taxsır yoxdur. Xətrinizə dəyməsin, bu vəzifəki var, fitə kimi şeydir, bəzi adamların eybini örtür.

C ü m ə z a d ə. Orta hesabla nə demək istəyirsən?

Ə l ə s g ə r. Demək istəyirəm ki, gözüm alışıb sizi stol arxasında, kabinetdə görməyə, burda məndən beşbetər lotu-bambılıya oxşayırsınız. *(Gülürlər.)*

Xeyir ola?

C ü m ə z a d ə. Mənim bir fərzəndim var...

Ə l ə s g ə r. *(istehza ilə).* Lap yaxşı tanıyıram. Canlara dəyən oğuldur.

C ü m ə z a d ə. Hə...  bu binadan bir qızı gözü tutub, nəvələrindən görəsən, elçiliyə gedirik.

Ə l ə s g ə r. Allah mübarək eləsin.

**Gedir, Zərnişan, Təsadüf, Muxtar gəlir.**

Z ə r n i ş a n. Ay Cəbi, bir üzük almışıq, iki göz lazımdır tamaşasına.

M u x t a r. Qiyamət şeydir. *(Üzüyə baxırlar.)*

C ü m ə z a d ə. Ə, Muxtar, səndən araq iyi gəlir. Vurmusan?

M u x t a r. Cəbi qağa, biləsən, bilməyəsən -  dörd yüz əlli, dörd yüz əlli beş qram, çox olmaz.

C ü m ə z a d ə. Demək vəzifə bölgüsü belədir. Məclisi açıram mən. Iyirmmi –otuz dəqiqə giriş sözü deyirəm.

M u x t a r. Cəbi qağa, çıxışınızı yazmısız ya elə sinədəftər döşəyəcəksiz?

C ü m ə z a d ə. Adə, camaat qəbir üstə ölü ilə vidalaşanda kağızsız danışmır, mən bəyəm nəyəm səninçün? Hə, qulaq as. Məclisdə mən nə desəm, sən təsdiq edirsən. Arada bir haşiyə çıxıb Təsadüfü tərifləyirsən. Qızın razılığını alan kimi *(konspektinə baxır.)* birinci: sən Zərnişan üzüyü qoyursan ortaya. Ikinci: onlar bizə razılıq əlaməti olaraq şirin çay verirlər...

M u x t a r. Bəlkə qanacaqları oldu konyak verdilər.

C ü m ə z a d ə. Işdir, elə olsa, sağlıqları özüm deyəcəyəm. *(Konspektinə baxır.)* Üçüncü: içirik çayımızı və yaxud konyakımızı, bir az gülürük, danışırıq. Dördüncü: qalxıb hörmətlə xudahafizləşirik. *(Oğluna.)* Sən də uzağa getmirsən, buralarda hərlənirsən. Aydındır?

H a m ı. Aydındır.

C ü m ə z a d ə. Gedək görək necə qızdır
Bizim təzə gəlinimiz

Z ə r n i ş a n. Gün olsun toyunu edək,
Köçsün bizə gəlinimiz.

M u x t a r. Döyməsin qaynanasın,
Baxsın sözə gəlinimiz.

C ü m ə z a d ə. Tellərini yan darasın,
Töksün üzə gəlinimiz.

Z ə r n i ş a n. Al geyinib sürmə çəksin
Qaşa-gözə gəlinimiz.

M u x t a r. Cəbi qağam hər nə desə
Gərək dözə gəlinimiz.

C ü m ə z a d ə. Öz toyunda Təsadüflə,
Gərək süzə gəlinimiz.

M u x t a r. *(Təsadüfə).* Qağam balası, ürəyini buz kimi sərin tut. Sən öləsən mən gedən yerdən hələ üzü qara qayıtmamışam.

**Uzaqlaşırlar. Təsadüf tək qalır. Həmşəxanımla Ələsgər balkonda görünür.**

Ə l ə s g ə r. *(şadlıqla.)* Sən ki, sözümü yerə salmadın, bu mənimçün dünyaya dəyər Həmşəxanım, sabahdan bığ qoymasam ... kişi deyiləm.

T ə s a d ü f. Gedim bu tindəki kişidən bir qəzet alım, görüm şeirim çıxmayıb?

**Gedir. Cüməzadəgil gəlib zəngi basırlar. Həmşəxanımla Ələsgər içəri keçir. Bir azdan Həmşəxanım qapıda görüncək Cüməzadə heyrətlənir.**

C ü m ə z a d ə. Bıy?! Həmşəxanım?! Burda neynirsən?

H ə m ş ə x a n ı m. Adam öz evində neynər?

M u x t a r. Vay!.. Vay!.. Vay!..

Z ə r n i ş a n. *(sevincək).* Həmşəxanım bacı, salam. Səni xoş gördük. Bura sizin evdir?

H ə m ş ə x a n ı m. Bəli... Buyurun içəri. Xoş gəlibsiz. Sizdən nə əcəb?

C ü m ə z a d ə. *(geri qayıtmaq istəyir).* Deyəsən, axı biz mənzili səhv salmışıq.

Z ə r n i ş a n. *(pıçıldayır).* Yox. elə buradır. O gün qızı bu qapıdan çıxanda Təsadüf göstərib mənə.

M u x t a r. *(içəri boylanır).* Özləri də bozbaş bişirirlər.

**Həmşəxanım qınaqları aynabəndə ötürüb gedir.**

C ü m ə z a d ə. Görürsən oğlun nə hoqqa çıxarıb? İndi biz bununla qohum olacağıq?!

Z ə r n i ş a n. Təsadüf lap yaxşı yerdən qız bəyənib, təki sevdamız baş tutsun. Demək, Diləzin bibisi Həmşəxanımmış. Nə yaxşı oldu. Elə mənə də belə quda lazımdır.

C ü m ə z a d ə. Arvad, nə qədər gec deyil, dur çıxaq aradan.

M u x t a r. Cəbi qağa, qoy yemək – içmək gətirsinlər, sonra.

**Həmşəxanım ardınca da  Ələsgər aynabəndə gəlir.**

C ü m ə z a d ə. Ələsgər?! Sən də burdasan?

M u x t a r. Vay!.. Vay!.. Vay!..

Ə l ə s g ə r. Kimi görməmişəmsə, salaməleyküm.

C ü m ə z a d ə. Elə gəldik Həmşəxanımın kefinni soruşaq, görək necədir. Işçilərin qeydinə qalmaq idarə rəhbərinin borcudur.

H ə m ş ə x a n ı m. Minnətdaram

M u x t a r. Əlbəttə, Cüməzadə bilməlidir kim ölüb, kim qalıb.

C ü m ə z a d ə. Qardaşın qızı Diləz də səninlə olur?

H ə m ş ə x a n ı m. Diləzin mənə bibi deməyinə baxmayın, qardaşım qızı deyil. Yataqxanada qalırdı, gördüm yolu iş yerindən çox uzaqdır, gətirdim yanımda olsun. Heç qohumumuz da deyil. Eh... bu gün-sabah qızcığaz gedəcək, yenə darıxacağam.

Ə l ə s g ə r. Qoymaram darıxasan, Həmşəxanım.

H ə m ş ə x a n ı m. Diləz özü utanır, mənə demir. Qonşulardan eşitmişəm, bir oğlan istəyir onu.

C ü m ə z a d ə  v ə  Z ə r n i ş a n. *(sevincək).* Elə həmin oğlanın elçiləriyik də.

M u x t a r.  Bəs necə. Əvvəl-axır bir butılka... Ey... bir qız bir oğlanındır.

H ə m ş ə x a n ı m.  Belə deyin. *(Qalxır.)* bu dəqiqə çay gətirim, gəlirəm. *(Çıxır.)*

C ü m ə z a d ə. *(Zərnişana).* Yaxşı oldu. Bu Diləzin, orta hesabla, heç qohumu da deyilmiş. Üzüyü hazırla.

M u x t a r. Ələsgər əmi, səndən bir şey soruşacağam

Ə l ə s g ə r. Buyuracaqsan.

M u x t a r. Eşitdiyimə görə məndən qabaq fabrikdə iki Ələsgər varmış.

Ə l ə s g ə r. Bəli.

M u x t a r.  Biri allahın rəhmətinə gedib, biri qalıb.bayaqdan fikirləşirəm, sən o ölən Ələsgərsən, ya qalan Ələsgər.

**Gülüşürlər.**

Ə l ə s g ə r. Bura yeri deyil, sonra sənə başa salaram.

**Həmşəxanım çay, mürəbbə, meyvə gətirib stola düzür.**

H ə m ş ə x a n ı m. Qızcığaz elə demişdi  a... Bibi, bu günlərdə sürpriz eliyəcəm. Oğlanı sənin yanına gətirəcəyəm.

C ü m ə z a d ə. Oğlan gəlmədi. Bayırda gözləyir.

M u x t a r.  Elə utancaqdır ki...

C ü m ə z a d ə. *(konspektini çıxarıb ayağa qalxır).* Gündəlikdə bir məsələ durur, yoldaşlar: bizim qaynar həyata atılmaqda olan gənc nəslin xoşbəxt ailə qurmaq məsələsi. Siz də, biz də çox gözəl bilirik ki, cavanlar bir-birlərini təmiz məhəbbətlə çoxdan sevirlər. Bu gəlişimiz, orta hesabla, formal xarakter daşısa da lazım idi. Mənim oğlum gözəl, ağıllı, düşüncəli, tərbiyəli və bu kimi müsbət xüsusiyyətlərə malik nədir? Bir uşaqdır.

Ə l ə s g ə r. Dayan, dayan qızı istəyən sizin öz oğlunuzdur?

C ü m ə z a d ə. Bəli.

Ə l ə s g ə r. Diləz də onu sevir?

M u x t a r.  Əşi, ölürlər bir-biri üçün ey. Leyli Məcnun! *(Başını stola söykəyib mürgüləyir.)*

Ə l ə s g ə r. *(ayağa qalxır).* Diləz o oğlanı sevsə mən bığ qoyaram.

C ü m ə z a d ə. *(özündən çıxır).* Istəyirsən lap saqqal qoy. Bu faktdır.

Z ə r n i ş a n. A... bu da sözdür!

C ü m ə z a d ə. *(Zərnişana).* Ay qız dur uşağı çağır bura.

**Zərnişan gedir.**

Ə l ə s g ə r. Mənim otuz qızım olsa, otuzundan da bezsəm, bircəciyiini də ona verməərəm.

C ü m ə z a d ə. *(stolu yumruqlayır).* Axı sən kimsən?!

**Muxtar diksinib oyanır.**

H ə m ş ə x a n ı m. Ələsgər bu evin ən hörmətli adamıdır.

M u x t a r. Bəli, mənim Cəbi qağam çox hörmətli adamdır. *(Qalxır.)* Bu barədə əlavəm var. *(Çay stəkanını qaldlrır.)* Deyirəm, bunu da içək mənim ikinci atamın doğma əmioğlusu, anamın ögey yeznəsinin kürəkəni, bir sözlə yaxın qohumum, can-ciyərim olan Cüməzadənin sağlığına, hansı ki, məni avaraçılıqdan qurtarıb, fabrikə mantyor qoyub. Mən buna görə öpəcəyəm qağamı. *(Həmşəxanımı qucaqlayıb öpmək istəyəndə Ələsgər onu yerində oturdur.)*

Ə l ə s g ə r. Elə oğlanın belə də elçisi olar.

C ü m ə z a d ə. Əşi, sevindiyindən içib, ona fikir verməyin.

H ə m ş ə x a n ı m. Bir deyin görüm oğlunuz hansı peşənin sahibidir?

C ü m ə z a d ə. *(mülayimcəsinə).* Oğlan hələlik işləmir. Bu il instituta da girməyə həvəsi olmadı.

M u x t a r. İstəsəydi lap əjdaha kimi girərdi. Qabağında dağ kimi atası durur.

H ə m ş ə x a n ı m. Yaxşı, bəs sabah evlənəndən sonra...

C ü m ə z a d ə. Eh, ölməmişik ki.

M u x t a r. Cəbi qağam ölməyib, ölməyəcək də

C ü m ə z a d ə. Bilirsən, Həmşəxanım, oğlum Təsadüf şairdir.

M u x t a r. Hə... Belə sinədəəftərdir, ayrıcüründən. Gündə bir şairlə oturub durur. Sizin minnətiniz olsun bizə qız verməyə.

**Zərnişan Təsadüfü içəri gətirir.**

T ə s a d ü f. Optimistcəsinə salam! *(Həmşəxanımın qarşısında təzim edərək, onun əlini öpür.)*

H ə m ş ə x a n ı m. *(təəccüblə).* Oğlunuz budur?

M u x t a r. Gör atasına necə oxşayır. Elə bil Cəbi qağam asqırıb, burnundan düşüb.

Ə l ə s g ə r. Mal yiyəsinə oxşamasa haramdır.

H ə m ş ə x a n ı m. Otur, bala.

T ə s a d ü f. Böyük ayaqüstə ikən, kiçik oturmaz.

C ü m ə z a d ə. Sağ ol, oğlum!

M u x t a r.  Bərəkallah! Gördüz? Eşitdiz?.. *(Stəkanı götürüb qalxır.)* Bunu da içirəm... *(Cüməzadə onu oturdur.)*

H ə m ş ə x a n ı m. Bala, bizim qızı istəyirsən?

T ə s a d ü f. Hava, günəş, su kimi.

C ü m ə z a d ə. *(Ələsgərə.)* Salaməleyküm!

Ə l ə s g ə r. Qız da səni istəyir?

T ə s a d ü f. Şübhəsiz ki, elə olmalıdır.

H ə m ş ə x a n ı m. Atan deyir, şeir yazırsan...

T ə s a d ü f. Bəli, mən intellektual bir şairəm

Ə l ə s g ə r. Ə, oxu o cızmaqarandan birini Həmşəxanım qulaq assın.

T ə s a d ü f. Böyük həvəs və məmuniyyətlə. *(Vəziyyət alır.)* Başlayıram:

Cahanda qranit tək bir parça qaranlıq.
Qaranlıqda içıq və sükunət.
Qaranlıq – könlüm,
Işıq – məhəbbətimdir!

H ə m ş ə x a n ı m. Saxla. Bəs bunun vəzni, qafiyəsi hanı?

C ü m ə z a d ə. Həmşəxanım, indi belə yazırlar da. Bir də uşağın o qədər vaxtı hardandı? Qafiyəsini sonra qoyar.

H ə m ş ə x a n ı m. Bu şeir plagiatdır. Mən onu hardasa eşitmişəm.

M u x t a r.  Başa düşmədim, bu plagirat nədir?

Ə l ə s g ə r. Sən qanan şey deyil.

H ə m ş ə x a n ı m. Yəni oğurluq, başqasından çırpışdırma.

Z ə r n i ş a n. A... Yox a... Elə şey eləməz.

T ə s a d ü f. Arvad, siz nə danışırsınız?! Mən Diləzdən ilhamlanandan sonra bunu yaratmışam. Ələsgər əmi özü canlı şahiddir.

C ü m ə z a d ə. *(tutulur).* Uzun çərənnəmə, çıx bayıra! *(Təsadüf gedir.)* Hə... bunlar hamısı düzələn şeylərdir. Həmşəxanim, gəl bu başdan şərti kəsək. Sonra arada inciklik olmasın. Xətrinə dəyməsin ey... Axı sən bir az davakar adamsan. Qızı aparanda cehizini, flanını maşınlara doldurub küçələrdə səs-küy salmağa qoymayacağam.

H ə m ş ə x a n ı m. Hələ bir görək qızı sizə verən var, ya yox?

C ü m ə z a d ə. Necə?!

M u x t a r. Yox, bu söhbət  Cəbi qağamı açmadı.

H ə m ş ə x a n ı m. Zərnişan bacıdan çox-çox üzr istəyirəm. Mənə qalsa, bu işə razı deyiləm. Ancaq yenə ixtiyar sahibi, əlbəttə,   qız özüdür.

C ü m ə z a d ə. Sən işlədiyin fabrikin diroktor əvəzi Cəbi Cüməzadəni belə yola salırsan?!

**Ayağa qalxırlar.**

H ə m ş ə x a n ı m. Fərqi yoxdur, müdir ol fabrikdə, ya əvəzi,

Ə l ə s g ə r. Mən Təsadüf kimi bir oğlana qıymam Diləzi.

Uğur olsun sizə, sevdamız baş tutmayacaq.

Bacımız Zərnişan, əlbəttə, bağışlar da bizi.

C ü m ə z a d ə. Burda da, Həmşəxanım, sən bizi rüsvay elədin!

M u x t a r. Pəl vurub xeyir işə əhvalımızı zay elədin.

Z ə r n i ş a n. Sən nahaqdan Diləzi oğlumuza tay elədin. Ay Cəbi, mən demədimmi o qızı verməzlər?

M u x t a r. Kimə lazımdı o qız!

Olmadıq biz alası.

Keçinər arvadsız

Qağamın gül balasa.

C ü m ə z a d ə. Gedək , Zərnişan!

**Çıxırlar. Cüməzadə həyətdə Təsadüflə qarşılaşcaq ona bir şillə ilişdirir.**

C ü m ə z a d ə. Plaqnat köpəkoğlu!

M u x t a r. *(Ələsgərə)*. Mənim sualıma cavab vermədin. Sən o ölən Ələsgərsən, qalan Ələsgər?

Ə l ə s g ə r. Sonra deyərəm.

M u x t a r. Yox. elə indi deyəcəksən.

Ə l ə s g ə r. Adə, əl çək. Abırdan salaram səni.

M u x t a r. Məni? Məni a?..

**Tutuşurlar. Həmşəxanım Ələsgəri, Zərnişan Muxtarı saxlayır.**

Ə l ə s g ə r. Muxtar, adamsansa çıxıb getginən,

Döyülməmişdən bizi tərk etginən

M u x t a r. Sən mənə heç nə eliyə bilməzsən,

Güldən ağır söz də deyə bilməzsən.

H ə m ş ə x a n ı m. Həşir, qiyamət düşəcək, ay aman,

Qoyma vura, Muxtarı tut, Zərnişan!

Z ə r n i ş a n. Bilməz idim bunları mən davakar,

Heç nəyin üstündə nə lov saldılar.

Ə l ə s g ə r. Bir dəli şeytan deyir yıx bunu,

Əzişdir altında ağız –burnunu.

M u x t a r. Sən mənə heç nə eliyə bilməzsən,

Güldən ağır söz də deyə bilməzsən.

C ü m ə z a d ə. Təqsir Ələsgərdədi, cırtqozdu o,

Heç nədən əhvalımızı pozdu o.

Ə l ə s g ə r. Istəmirəm burda səni döyəm mən,

M u x t a r. Yoxsa ki,  bişmiş toyuğam, nəyəm mən?!

**Muxtar üstünə cumanda Ələsgər ona bir şapalaq ilişdirir. Azərlə Diləzbər gəlir.**

A z ə r. Nə olub? Nə qalmaqaldır?

Z ə r n i ş a n. Təsadüf bu qızı istəyirdi,  ey.

C ü m ə z a d ə. *(irəli çıxır).* Diləzbər?! Azər?!

T ə s a d ü f. *(Azərə).* Sən mənim gözümdə normal bir insandan çox qırmızı şeytana çevrildin. Metamaofoza! *(Gedir.)*

Z ə r n i ş a n. Cəbi çeşməyini tax, düş qabağa!

D i l ə z b ə r. Bibi məni təbrik et,
Sevdiyin oğlan budur.
Kim nə desə yalandır,
Mənə mehriban budur.

A z ə r. Bibi, məni təbrik et,
Tutduğum ceyran budur.
Kim nə desə yalandır,
Fikrimdə hər an budur.

B i r l i k d ə. Bibi məni təbrik et,
Arzumuz çoxdan budur.

*Pərdə*

**İNTERMEDİYA**

**Küçədir. Diləzbər Azərin evinə gəlin köçür. Qızlar rəqs edir.**

F i r u z. Bəylə gəlini evlərinə qədər ötürdük, daha bəsdir.

H ə m ş ə x a n ı m. Elə zarafat yoxdur, çalın, mən hələ Ələsgərlə oynamaqdan doymamışam.

Ə l ə s g ə r.  Heç mən də səndən doymamışam.

**H ə m ş ə x a n ı m Ələsgərlə oynaya-oynaya oxuyur.**

H ə m ş ə x a n ı m. Qızım toyun mübürək,
Sağ əlini başıma çək.

H a m ı.  Can, can! Can, can!

H ə m ş ə x a n ı m. Oğlum sənə yaraşır
Diləzbər tək bir mələk!
H a m ı. Can, can! Can, can!
H ə m ş ə x a n ı m. Gəlin darar çətrini,
Bəy istəyər xətrini.
H a m ı. Can, can! Can, can!
H ə m ş ə x a n ı m. Bilin bu xoş həyatda
Yaşamağın qədrini!
H a m ı. Can, can! Can, can!
H ə m ş ə x a n ı m. Ömrünüz çatsın yüzə,
Gülməsin heç yad sizə
H a m ı. Can, can! Can, can!
H ə m ş ə x a n ı m. Həmşəxanım arzular
Bir düjün övlad sizə.

**Oxuya, oynaya gedirlər.**

## BEŞİNCİ ŞƏKİL

**Birinci şəkildəki yer. Səhərdir. Azər, Diləzbər gəlir.**

A z ə r. Biz bu gün də hamıdan tez gəlmişik, Diləzbər.

D i l ə z b ə r. *(düşüncəli)*. Amma Şəfiqə xəstədir. Briqadasından, dəzgahlarından nigarandır.

A z ə r. Şəfiqə Firuza layiq qızdır. Di gəl ki, bəzi xasiyyətləri olmasa. O həmişə əvvəlcə öz briqadasının taleyini düşünür.

D i l ə z b ə r. Elədir. Insanların xarakterləri çox mürəkkəbdir. Ayrı cür bəlkə də işləməyin, yaşamağın yeknəsəkliyi adamı darıxdırardı.

A z ə r. Mənimlə necə, darıxmırsan ki, Diləzbər?

D i l ə z b ə r. *(utanır)*. Sənə elə alışmışam ki... deyə bilmirəm. Aləmdə yaxşı nə varsa, sən mənim gözümdə onların hamısından qiymətlisən.

D i l ə z b ə r. Gözəldir həyatda sevib-sevilmək,
Onsuz yaşamağın nə mənası var?
A z ə r. Mənimtək xoşbəxtdir bizim dünyada,
Hər kimin sənintək bir rənası var.
D i l ə z b ə r. Xəyal nəhayətsiz bir asimandır,
Hünərdir elləri şöhrətləndirən.

A z ə r. Sevgi zəhmət ilə ekiz yaranmış,
Onlardır insanı zinətləndirən!

B i r l i k d ə. Ürəkdən deyək
Alqış zəhmətə.
Uğurlar olsun
Bu məhəbbətə.

D i l ə z b ə r. Gedək Azər, növbəni qəbul edək.

A z ə r. Gedək, əzizim. Arzudan, xəyaldan söhbət açmağa qabaqda o qədər illər var ki.

**Gedirlər. Həmşəxanım gəlir. O, tamam başqa qiyafədədir. Saçlarını son dəblə vurdurmuşdur.**

H ə m ş ə x a n ı m. Bəli, süpürgə ilə də belə vidalaşdıq. Indi görək bu katibəlik necə şeydir.

**Yazı maşınının arxasında oturub taqqıldadır. Cüməzadə qaşqabaqlı gəlir.**

C ü m ə z a d ə. Səndən xəbər alıram, mən Firuza töhməti haçan vermişəm?

H ə m ş ə x a n ı m. Səkkiz gün bundan əvvəl.

C ü m ə z a d ə. Niyə əmri yazmamısan? Nə üçün o bu çağacan lövhədən asılmayıb?!

H ə m ş ə x a n ı m. Vaxtım olmayıb

C ü m ə z a d ə. Bəs sənin işinin adı nədir!? Yaz, tapşırığımı yerinə yetirmədiyin üçün özünə də bir töhmət!

H ə m ş ə x a n ı m. Buna ixtiyarınız yoxdur.

C ü m ə z a d ə. Niyə? Axı sən kimsən, orta hesabla?

H ə m ş ə x a n ı m. Siz Firuza töhmət verəndə mən süpürgəçi işləyirdim. O zaman əmri yazmağı məndən ancaq xahiş eliyə bilərdiniz. Katibəliyə başladığım isə beşcə dəqiqədir. Ona görə də mənə töhmət düşmür.

**Cüməzadə deməyə söz tapmayıb uzaqlaşır.**

H ə m ş ə x a n ı m. *(arxadan).* Sizi soruşsalar, hara deyim getmisiz?

C ü m ə z a d ə. Cəhənnəmə! *(Gedir.)*

H ə m ş ə x a n ı m. Baş üstə

**Muxtar gözü sarıqlı gəlir.**

M u x t a r. Cəbi qağa yerindədir?

H ə m ş ə x a n ı m. Xeyr. İndi çıxdı.

M u x t a r. Hara?

H ə m ş ə x a n ı m. Cəhənnəmə.

M u x t a r. Vay!.. Vay!.. Vay!.. Arvad, danışığına fikir ver. Axır bu dilinin bəlasına düşəcəksən.

H ə m ş ə x a n ı m. Bəlaya sən düşəcəksən. Istirahət günü BAQES-in qabağında kabel satırdın, o hardandı?

M u x t a r. *(tutulur)*. Özüm bilərəm. Mən elektrikəm.

H ə m ş ə x a n ı m. Ay səni elektrik vursun! Sexin adına qol çəkdirib aldığın kabeli xırıd eləyirdin? Onun hər metrəsi üçün cavab verəcəksən.

M u x t a r. Kimə? Sənə? Xox! Ölmüşdü Muxtar

**Təzə bığ qoymuş Ələsgər əl arabası ilə gəlir.**

Ə l ə s g ə r. Kimi görməmişəmsə, salaməlyküm. *(Zəncirli aarları çıxarıb oynadır.)* Ə, Muxtar, qabiliyyətin olsun. Adam qadınla o dildə danışmaz.

M u x t a r. Axı bilmirsən mənə nə deyir.

Ə l ə s g ə r. Həmşəxanım nə deyirsə, düz deyir. Gözünü niyə sarımısan?

M u x t a r. Guya xəbərin yoxdur?  O gün özün vurub fənərləmədin?

H ə m ş ə x a n ı m. Ələsgər nə eləyirsə, düz eləyir.

M u x t a r. Vay!.. Vay!.. Vay!.. Sizinlə bacarmaq çətin məsələdir.

Ə l ə s g ə r. *(onu süzür).* Muxtar, sənin Cəbi qağan kadr seçməyi də bacarmır. Biz görmüşük şipyon olar bu boyda *(Göstərir.)* Burdan vurar, ordan çıxar, heç kəs də xəbər tutmaz. Yoxsa sənin kimi. Yol qırağında dikəlmiş şlaqbauma oxşayırsan.

M u x t a r. Mən bu sözləri ona çatdıraram! *(Gedir).*

H ə m ş ə x a n ı m. *(gülür)* Ələsgər mübarəkdir.

Ə l ə s g ə r. Nə?

H ə m ş ə x a n ı m. Bığların. Əcəb yaraşır sənə. Koroğlunun cavanlığına çirət vurursan.

Ə l ə s g ə r. Yaxşı,  Şəfiqə yenə işə çıxmayıb?

H ə m ş ə x a n ı m. Yox. bir həftədir xəstədir. Görmədin, Firuz da toya tək gəlmişdi

Ə l ə s g ə r. Bu axşam deyirəm, oturaq maşına, qıza bir baş çəkək.

H ə m ş ə x a n ı m. Elə mən də səndən onu xahiş edəcəkdim.

Ə l ə s g ə r. Həmşəxanım, daha xahiş qurtardı. Bundan sonra sən əmr et, tələb et.

H ə m ş ə x a n ı m. *(qısılır).* Çaynikin qapağını... Bıy... Ələsgər, o əlindəki zəncir hardan?

Ə l ə s g ə r. Bir çaydan qapağı tapmışdım,  ondan açdım.Necə?

H ə m ş ə x a n ı m. Eh... Neçə vaxtdır mən onu axtarıram. Bəs qapağı neynədin?

Ə l ə s g ə r. Heç bilmirəm hara atdım. Onsuz da Həmşəxanım, sənin o çaynikin bir adamlıqdır. Indi bizə iki adamlıq lazımdır. Təzəsini alarıq.

H ə m ş ə x a n ı m. Nə deyirəm ki...

**Cüməzadə Firuzla gəlir.**

C ü m ə z a d ə. Madam ki, gənclərin toyu televiziya ilə göstəriləcək, biz onu yüksək, mədəni və ictimai səviyyədə keçirməliyik. *(Ələsgərlə Həmşəxanım gülür. Ələsgər arabasını çəkib gedir.)* Fikirləşib belə bir qərara gəlmişəm, istəyirəm toyda yeyib-içməzdən qabaq televiziya tamaşaçılarına fabrikimizin gördüyü işlərdən və gələcək planlardan, çox yox, otuz beş- qırx dəqiqəlik məlumat verim.

F i r u z.  Yaxşı olardı, ancaq...

C ü m ə z a d ə. Qulaq as, sözümün canı var. Bunun üçün mənə beş-altı gün vaxt lazımdır. Odur ki, istər-istəməz cavanların xeyir işini bir həftə də təxirə salmalıyıq. *(Kabinetə keçirlər.)* Televiziya işçilərinə deyərik gözləsinlər. Sonra məsləhət bilsək bu məsələni bir də götür-qoy edərik.

F i r u z.  Məsləhət bilmirəm.

C ü m ə z a d ə. Niyə?

F i r u z. Çünki biz özümüz götür-qoy da elədik, yaxşıca toy da elədik.

C ü m ə z a d ə. Elədiz? Harda?

F i r u z.  Səadət sarayında.

C ü m ə z a d ə. Diləzbər köçdü?

F i r u z. Bəli. Orta hesabla, köçdü.

C ü m ə z a d ə. Niyə məni gözləmədiniz?

F i r u z. Həmşəxanım məsləhət bilmədi.

C ü m ə z a d ə. Ah... Dad o Həmşəxanımın əlindən! Gəlin kimin maşınında getdi?

F i r u z. Ələsgərin “Zaporojes”ində. Nə əcəb xəbəriniz yoxdur? O axşam toy mərasiminə televizorda bütün respublika tamaşa edirdi.

**Muxtar qoltuğunda nağaraşövqlə içəri təpinir. Heç bir söz demədən küncdə oturub nağarada qaytağı vurur. O biri otaqda Həmşəxanım dingildəyə-dingildəyə uzaqlaşıb gedir.**

M u x t a r. *(çalıb qurtarır).* Cəbi qağa, necə öyrənmişəm? Toyda çalmağa hazıram?

C ü m ə z a d ə. *(nağaranı alıb onun başına keçirir).* Dur rədd ol gözümün qabağından! Heyvərə! Toydan sonra nağara!

M u x t a r. Hə? Toy olub? Vay!.. Vay!.. Vay!..

F i r u z. *(çıxanda ona eşitdirir).* Bu gün sexin elektrik xətlərini mütləq çəkib qurtarmalısan.

M u x t a r. Görək də...*(Gedir.)*

C ü m ə z a d ə. *(düşüncəli).* Bu kollektivlə bacarmaq çox müşkül işdir.

**Dəhlizə çıxırlar. Şəfiqə həyıcanla gəlir.**

F i r u z. Şəfiqə?

C ü m ə z a d ə. Həmişə ayaq üstə. Yaxşı oldunmu?

Ş ə f i q ə.Təmiz yox. Evdə qərar tutmadım.

F i r u z. Elə isə nahaq qalxmısan.

C ü m ə z a d ə. Bəli. Bu ay sənin briqadan başından batdı. Bir yandan dəzgahın sınması, bir yandan da bu xəstəlik... səni çox geri saldı.

Ş ə f i q ə. *(ağlamsınır).* Xəcalətdən killektiv arasına çıxa bilməyəcəyəm. Həmişə, qabaqda gedən mən, indi quyruqda sürünəcəyəm.

F i r u z. Sən heç narahat olma, Şəfiqə. Işə çıxmadığın günlər ərzində dəxzgahların hamısı öz qaydası ilə işləmişdir.

Ş ə f i q ə. Necə?!

F i r u z. Yaxın gəl. *(Sexi göstərir.)* Görürsənmi?

Ş ə f i q ə. *(heyrətlə).* Mənim dəzgahlarıma onlar baxırlar? Inana bilmirəm. *(Sevincək qışqırır.)* Diləzbər! Azər!

**Diləzbərlə Azər gəlir.**

H ə r i k i s i . Şəfiqə, səni xoş gördük! Necəsən?

D i l ə z b ə r. *(onunla qucaqlaşır).* Sənsiz yaman darıxmışdıq.

C ü m ə z a d ə. *(Firuza)* Başa düşmürəm. Demək bunların yarışmalarına baxmayaraq Diləzbər həm özünün, həm də rəqibinin dəzgahlarını idarə edir?!

F i r u z. Bəli.düz bir həftədir.

D i l ə z b ə r. Yoldaş Cüməzadə, ümumi işin xatirinə biz bu əziyyəti mütləq öz üzərimizə götürməliydik. Firuzun xahişi ilə Şəfiqənin iyirmi dörd dəzgahını Azərlə mən öz aramızda bölüşdürmüşük.

A z ə r. Bəs necə? Bu dostluq, yoldaşlıq borcumuzdur. Biz səni darda qoymarıq, Şəfiqə.

C ü m ə z a d ə. *(Diləzbərə).* Ay qız , sözündən belə çıxır ki, sən bu həftə otuz yeddi dəzgahda işləmisən?

D i l ə z b ə r. Bəli, bu saat Şəfiqənin briqadası mənimkindən də irəlidir. Yarışda onlar qalib gələcəklər.

F i r u z. *(eyhamla).* Şəfiqə, adamları bərkdə-boşda sınamamış qiymətləndirmək çətindir.

Ş ə f i q ə. Bu gün çox şey mənə aşikar oldu.
Sevindim fərəhdən gözlərim doldu.
Bildim qarşınızda təqsirkaram mən.
Inciyib küsmüşəm nahaqdan hərdən.
Əhf edin, unudun günahlarımı,
Qoymadız dayana dəzgahlarımı.
Mənim sədaqətli dostlarıımsınız,
Bərkdə dəyanətli dostlarımsınız.

**Nahar zəngi çalınır. Toxucu qızlar toplaşır.**

Ş ə f i q ə. Bu yaxşılığa görə mən sizə borcluyam.

F i r u z. Sənin bizə ancaq bir borcun var. Azərlə Diləzbərin toyunda oynamamısan. Qızlar Şəfiqəni ortaya çəkin!

**Musiqi. Qızlar Şəfiqə ilə birlikdə rəqsə qoşulurlar. Həmşəxanımla qəşəng pal –paltarda olan Zərnişan gəlir. Cüməzadə arvadını görcək mat qalır.**

C ü m ə z a d ə. Zərnişan? Sən bura niyə gəlmisən?!

Z ə r n i ş a n. Evdə oturduğum kifayətdir. Mən də bu kollektivdə işləmək istəyirəm.

C ü m ə z a d ə. *(Həmşəxanıma çımxırır).* Bilirəm, bunlar hamısı sənin işləklərindir!

H ə m ş ə x a n ı m. Mən hələ heç kəsə yamanlıq eləməmişəm. Kim məndən inciyirsə, öz bəxtindən küssün.

C ü m ə z a d ə. *(ayılır).* Əməllərindən xəbərdaram. Sənin öhdəndən gələ bilmədim. Keç makina dalına yaz. *(Həmşəxanım yerində əyləşir.)* Yaz. Yüngül sənaye nazirliyinə. Bir nömrəli toxuculuq fabrikinin direktor əvəzi C. Cüməzadədən ərizə. Fabrikin sabiq xadiməsi, hazırda katibəsi Həmşəxanım arvadla direktor gələnə kimi bacara bilməyəcəyəm, vergül, buna görə də sizdən acizanə xahiş edirəm, yenə vergül, mənim bu vəzifədən azad olunmağıma sərəncam verəsiniz.

**Hamı heyrətlənir.**

H ə m ş ə x a n ı m. *(yazır).* Sərəncam verəsiniz. Nöqtə.

**Təsadüf sevincək içəri girir.**

T ə s a d ü f. Metamorfoza! Paxan, gözün aydın! Nəhayət şeirim çap olundu. *(Oxuyur.)*

“...Bakenbar kimi –
Biri sağda,
Biri solda...

Budur! Kim mənim intellektual şairliyimə şübhə edirsə, alsın bu qəzeti oxusun.

H ə m ş ə x a n ı m. Elə o şeiri çap eləyən də sən ağıldadır.

C ü m ə z a d ə. *(çımxırır).* Ananı götür, get evə! Mən də gəlirəm. Həmşəxanım, o Muxtarı tap, bura çağır.

H ə m ş ə x a n ı m. Muxtarı beş dəqiqə bundan qabaq elektrik vurdu. “Təcili yardım” çağırmışam. TƏzə kabelləri satıb, əvəzində köhnəsini çəkəndə belə olar da...

**Cüməzadə yazı maşınından ərizəni hirslə çıxarıb gedəndə Ələsgərin əl arabası ilə qarşılaşır. Arabada Muxtar uzanmışdır. Cüməzadə donub qalır.**

M u x t a r. *(zarıyır)* Cəbi qağa...

**Cüməzadə ikrahla geri qayıdır.**

H ə m ş ə x a n ı m. *(Muxtara).* Qaragünlüyünü qablaşdır, qağan fabrikdən gedəsi oldu.

M u x t a r. Cəbi qağa, getmə, dayan,
Vay!... Vay!... Vay!...
İşim oldu gör nə yaman.
Vay!... Vay!... Vay!...
Elektrik vurdu məni.
Vay!... Vay!... Vay!...
Barı mənim halıma yan.
Vay!... Vay!... Vay!...

Ə l ə s g ə r. *(arabanı yanındakı oğlana ötürür).* A bala, bunu fabrikdən çıxar. Apar qoy həyətdəki “təcili yardım” maşınına.

**Cüməzadə uzaqlaşdıqca oğlan da əl arabası ilə onu müşayiət edir.**

Ə l ə s g ə r. Bu yerdə “Yaşasın Həmşəxanım” deməyəsən, neyləyəsən?

H a m ı. “Yaşasın Həmşəxanım”

**Musiqi çallır. Ələsgər Həmşəxanımla ortada. Azərlə Diləzbər sağda, Firuzla Şəfiqə solda qoşa dayanırlar. Toxucu qızlar onları dövrəyə alır.**

H a m ı. Durmadan gurlasa dəzgahlarımız,
Bol olar parçamız, artar varımız.
Insanı daima zəhmət yaşadar.
Saf ürək, bir də məhəbbət yaşadar.

*P ə r d ə*